# BAKIDA NÖVBƏTİ MÖHTƏŞƏM BEYNƏLXALQ FORUM

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası dünyanın diqqətini yenidən ölkəmizə yönəldəcək.

Forum çərçivəsində Azərbaycana gəlmək üçün qeydiyyatdan keçənlərin sayında da rekord qeydə alınıb. Belə ki, 180 ölkədən 32 mindən çox şəxs WUF13-də iştirak etmək istəyini bəyan edib. Bu, WUF tarixində indiyə qədər qeydə alınan ən böyük göstəricidir. Forum "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr ediləcək.

SƏHİFƏ 3-də




'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

16 MAY ŞƏNBƏ 2026 № 18 (4269)

Qiyməti - 60 qəpik

www.kaspi.az






## ŞƏHƏRSALMANIN NƏBZİ BAKIDA DÖYÜNƏCƏK

Bakı WUF13 forumuna ev sahibliyi etməyə hazırlaşır. WUF13 çərçivəsində həm gələcəyin urbanizasiya modelləri müzakirəyə çıxarılacaq, həm də işğaldan azad edilmiş ərazilərdəki unikal "ağıllı şəhər" təcrübəsi dünyaya nümayiş etdiriləcək.

SƏHİFƏ 4-də



## TURİZM SEKTORUNDA DÖNÜŞ NÖQTƏSİ

Turizmdə Təl-Əvivə və Dubaya uçuşların bərpası sevinclə qarşılanıb. Turizimçilər hesab edirlər ki, uçuşların bərpası həm ölkəyə gələn turistlərin sayını, həm də ölkədən çıxış imkanları artıracaq.

SƏHİFƏ 13-də



## "ƏVVƏLLƏR BURUN ƏMƏLİYYATLARI TRENDDƏ İDİ"

Adil Cümşüdov: "İkinci Qarabağ müharibəsində yaralanmış döyüşçülər üzərində apardığım rekonstruktiv əməliyyatlar mənim üçün xüsusi əhəmiyyət daşıyır. Bu əməliyyatların bir çoxu Azərbaycan tarixində ilk dəfə həyata keçirilirdi".

SƏHİFƏ 14-də

### TÜRK DÜNYASI XXI ƏSRİN NÜFUZLU GEOSİYASİ GÜC MƏRKƏZİNƏ ÇEVRİLMƏLİDİR

# TÜRKÜSTANDA TÜRK ZİRVƏSİ



Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Tədbirdə Prezident İlham Əliyev də iştirak edib.

### İLHAM ƏLİYEV GÖRÜŞDƏ ÇIXIŞ EDİB

Prezident İlham Əliyev Türküstan şəhərində TDT-nin Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edib. Azərbaycan Prezidenti və tədbirdə iştirak edən digər dövlət başçıları birgə foto çəkdiriblər. Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib.

### ZƏNGİN TARİXİ ƏKS ETDİRƏN MƏRKƏZ

Prezident İlham Əliyev və digər prezidentlər Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində də iştirak ediblər. Bildirilib ki, layihə türk xalqlarının zəngin tarixi, mədəni və mənəvi irsinin qorunub saxlanmasına, öyrənilməsinə və təbliğinə yönəlib.

SƏHİFƏ 2-də

"Çox istərdim ki, nəvələrim də bəstəkar olsunlar"

## "MƏN ATA-BABAMIN DAVAMÇISI OLMAQ İSTƏDİM"



"Məktəbdə qonaq olan hər bir elm və sənət adamı, hər bir görkəmli bəstəkar, yazıçı və ya idmançı ömürlük şagirdlərin yaddaşına yazılır. Bu insanların həyat və yaradıcılıq yolu, qazandığı uğurlar məktəblilər üçün əsl örnəyə çevrilir". Bu fikirlərin müəllifi tanınmış bəstəkar, Xalq artisti Eldar Mansurov şagirdlərlə görüşünü ən gözəl xatirə adlandırdı.

SƏHİFƏ 8-9-da



## SAMURAYLAR BÖYÜK OYUNA QAYIDIRLAR

Sanae Takaiçi İkinci Dünya müharibəsindən bəri ilk dəfə ölümcül silahların ixracına qoyulan qadağanı ləğv etməyə müvəffəq olub. Bu addım Yaponiyanın pasifist mövqeyindən əhəmiyyətli şəkildə uzaqlaşması anlamına gəlir.

SƏHİFƏ 5-də



## İNŞA EDİLƏCƏK STANSİYALARLA BAĞLI YENİLİK

Hazırda Bakı Metropoliteni dünyada xidmət göstərən 213 metropolitenlə müqayisədə sıxlıq dərəcəsinə görə top onluqda yerləşir. Bu sıxlığın azaldılması istiqamətində mühüm qərarların veriləcəyi bildirilir.

SƏHİFƏ 10-da



## SULAR ÜZƏRİNDƏ QURULAN MÖCÜZƏ

İtaliyanın dünyaca məşhur Venesiyasının əsas cazibəsi şəhərin sözün əsl mənasında suyun üzərində üzməsidir. Tarixinə dərindən nəzər saldıqda, şəhərin heyrətamiz və unikal olduğu qənaətinə gəlirsən.

SƏHİFƏ 15-də



SOCAR-ın pavilyonu ən yaxşı seçilib

SƏHİFƏ 10-da



Ermənistanın yeni "xilaskarı"

SƏHİFƏ 6-da



"Borcla yaşamaq" modeli zəifləyir

SƏHİFƏ 12-də



Müvəqqəti durğunluq, yoxsa yeni trend?

SƏHİFƏ 11-də



Yüksək amplitudalı yırğalanma

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi






# TÜRKÜSTANDA TÜRK ZİRVƏSİ

Qazaxıstanın Türküstan şəhərində TDT-nin Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Tədbirdə Prezident İlham Əliyev də iştirak edib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün mayın 15-də bu ölkəyə işgüzar səfər edib.

### "HƏZRƏT SULTAN" MİLLİ TARİX-MƏDƏNİYYƏT MUZEY-QORUĞU İLƏ TANIŞLIQ

Səfər çərçivəsində Prezident İlham Əliyev TDT-nin Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlərlə birlikdə Türküstan şəhərindəki "Həzrət Sultan" Muzey-Qoruğu ilə tanış olub.

Dövlət başçılarına qoruq haqqında məlumat verilib. Bildirilib ki, "Həzrət Sultan" Milli Tarix-Mədəniyyət Muzey-Qoruğu 1989-cu ildə yaradılıb. Muzeydəki "Nadir Eksponatlar Zalı" Qazaxıstanın ən əhəmiyyətli muzey və sərgi layihələrindən biridir. Məqsəd orta əsrlər dövrünün nadir tarixi və mədəni irsini qorumaq və təbliğ etməkdir. Muzeydə Türküstanın zəngin tarixi, Türk dünyasının mənəvi irsi və Xoca Əhməd Yasəvi məqbərəsinə aid nadir artefaktlar nümayiş olunur. Hazırda muzey-qoruğun kolleksiyasında 26 mindən çox eksponat var ki, onların da təxminən 80 faizi artefaktdır. Sonra Türküstanda yerləşən Xoca Əhməd Yasəvi məqbərəsi ilə tanışlıq olub.

### TÜRK SİVİLİZASİYASI MƏRKƏZİNİN TƏMƏLİ QOYULUB

Azərbaycan Prezidenti İlham Əliyev və digər prezidentlər Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində də iştirak ediblər. Dövlət başçılarına Mərkəz barədə məlumat verilib.

Bildirilib ki, layihə türk xalqlarının zəngin tarixi, mədəni və mənəvi irsinin qorunub saxlanmasına, öyrənilməsinə və təbliğinə yönəlib. Ən qabaqcıl standartlara uyğun inşa ediləcək mərkəzin əsas ideyası türk sivilizasiyasının dünya tarixində özünəməxsus yeri, dərin fəlsəfəsi və dövlətçilik ənənələri olan böyük sivilizasiya olduğunu nümayiş etdirməkdir.

## "Qədim şəhərlərimiz də xalqlarımız kimi qardaşdır"

Daha sonra Prezident İlham Əliyev Türküstan şəhərində TDT-nin Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edib. Azərbaycan Prezidenti və tədbirdə iştirak edən digər dövlət başçıları birgə foto çəkdiriblər. Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib. Dövlət başçısı bildirib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edildikdən sonra qardaşlaşdığı ilk şəhər Türküstan şəhəri olub: "Qədim şəhərlərimiz də xalqlarımız kimi qardaşdır".

### "SON 5 İLDƏ BU, MƏNİM QAZAXISTANA SƏKKİZİNCİ SƏFƏRİMDİR"

Dövlət başçısı bildirib ki, Qazaxıstan ilə Azərbaycan arasındakı sıx əlaqələri nümayiş etdirmək üçün təkcə prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərləri göstərmək olar: "Son 5 ildə bu, mənim Qazaxıstana səkkizinci səfərimdir. Prezident Tokayev isə Azərbaycana altı dəfə səfər etmişdir. Dörd il əvvəl imzalanmış Birgə Bəyannamə əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırmışdır. Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü təşəbbüsü artıq ənənəyə çevrilir.

Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabr ayında Qəbələ Zirvə Görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir.

Yaxın günlərdə Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksək-səviyyəli dialoqu təşkil ediləcək".




### "ÖTƏN İL ÖLKƏMİZDƏ SÜNİ İNTELLEKT STRATEGİYASI QƏBUL EDİLİB"

Prezident qeyd edib ki, Zirvə Görüşünün mövzusu dövrümüzün çağırışlarını və prioritetlərini əks etdirir: "Dünya rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır.

Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir. Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır.

Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır.

Ölkəmizdə sabit genişzolaqlı internetin əhatəsi 100 faizə çatdırılmışdır. Bütün dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən həyata keçirilməsi istiqamətində işlər davam edir".

### "ORTA DƏHLİZ BOYUNCA GÖMRÜK PROSEDURLARI SADƏLƏŞDİRİLİR"

Prezident İlham Əliyev qeyd edib ki, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir. Rəqəmsal inkişaf sahəsində Türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Transxəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır:

"Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir. Cari qlobal geosiyasi şəraitdə Orta Dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcək.

Orta Dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış "e-Permit" sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir.

Əziz dostlar, ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək".




# BAKIDA NÖVBƏTİ MÖHTƏŞƏM BEYNƏLXALQ FORUM

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası dünyanın diqqətini yenidən ölkəmizə yönəldəcək. Forum çərçivəsində Azərbaycana gəlmək üçün qeydiyyatdan keçənlərin sayında rekord qeydə alınıb. 180 ölkədən 32 mindən çox şəxs WUF13-də iştirak etmək istəyini bəyan edib.**

F.ABASOĞLU

Bakı növbəti möhtəşəm beynəlxalq foruma hazırdır. 17-22 may tarixlərində keçiriləcək BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan Hökuməti tərəfindən birgə təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) dünyanın diqqətini yenidən ölkəmizə yönəldəcək. Son məlumatlara görə, Forum çərçivəsində Azərbaycana gəlmək üçün qeydiyyatdan keçənlərin sayında da rekord qeydə alınıb. Belə ki, 180 ölkədən 32 mindən çox şəxs WUF13-də iştirak etmək istəyini bəyan edib. Bu WUF tarixində indiyə qədər qeydə alınan ən böyük göstəricidir. Forum "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr ediləcək.

### ƏSAS MƏKAN BAKI OLİMPİYA STADİONU OLACAQ

WUF13-ün əsas məkanı Bakı Olimpiya Stadionu olacaq. Yeri gəlmişkən, Prezident İlham Əliyev bir neçə gün əvvəl Bakı Olimpiya Stadionunun ərazisində görülən işlərlə tanış olub. Tədbir məkanı Bakı Olimpiya Stadionu ilə yanaşı, onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi üzrə 53 hektar təşkil edir. Yüksəksəviyyəli qonaqlar və nümayəndə heyətləri üçün xüsusi zonalar ayrılıb. Burada dövlət və hökumət nümayəndələrinin qəbulu, ikitərəfli görüşlər, istirahət sahəsi və qidalanma xidməti üçün xüsusi məkanlar nəzərdə tutulub.

### GÜNDƏ 300-Ə QƏDƏR PARALEL SESSİYA, GÖRÜŞ VƏ TƏDBİR KEÇİRİLƏCƏK

Açılış və bağlanış mərasimlərinin təşkil ediləcəyi tədbir zalı 6000 nəfərə qədər iştirakçını qəbul edə biləcək. Mövcud hazırlıq səviyyəsi Forumun yüksək iştirakçı axınını, çoxsaylı paralel tədbirləri və beynəlxalq nümayəndə heyətlərinin qəbullarını uyğun şəkildə planlaşdırmağa imkan verir. Forumun əsas müzakirə və paralel tədbirlərinin olacağı zona 3,55 hektar sahəni əhatə edir və iclas zalları, tematik sessiyalar, BMT tədbirləri, paralel görüşlər və ikitərəfli danışıqlar üçün nəzərdə tutulub. Burada müxtəlif formatlı rəsmi və işgüzar görüşlərin eyni vaxtda keçirilməsi üçün şərait var. Forum zamanı gündə təxminən 300-ə qədər paralel sessiya, görüş və tədbirin keçirilməsi planlaşdırılır. Tədbirdə BMT-nin 6 rəsmi dili - ərəb, Çin, ingilis, fransız, rus və ispan dilləri ilə yanaşı, Azərbaycan və türk dillərində də sinxron tərcümə təmin ediləcək. Eyni zamanda, əlilliyi olan şəxslər üçün beynəlxalq işarət dili xidməti nəzərdə tutulub.

### 41 ÖLKƏDƏN 121 PAVİLYON

Forum iştirakçıları üçün açıq hava formatında WUF13 Bulvarı yaradılıb. Bu sahə 2,5 hektar ərazini təşkil edir. Bulvar ərazisi "Expo zonası"na keçid və açıq ictimai məkan funksiyasını daşıyır.

"Urban Expo zonası" isə 3,5 hektar sahəni əhatə edir. Ümumilikdə, 121 pavilyon, o cümlədən 41 ölkə pavilyonu nəzərdə tutulub.

Qeydiyyat prosesi üçün olan sahədə eyni anda 70 nəfərə, saatda isə 1000 nəfərə xidmət göstərmək imkanı var. Əlilliyi olan şəxslər üçün ayrıca akkreditasiya və qeydiyyat masaları nəzərdə tutulub.

Tədbirin fasiləsiz internet, yayım və rəqəmsal əməliyyat ehtiyaclarını təmin etmək üçün əsas və ehtiyat məlumat mərkəzləri, genişmiqyaslı fiber-optik və daxili şəbəkə infrastrukturu, simsiz şəbəkə avadanlıqları və fasiləsiz işləyəcək əməliyyat mərkəzi yaradılıb.



## AZƏRBAYCANIN "AĞILLI ŞƏHƏR" VƏ "AĞILLI KƏND" KONSEPSİYALARI

Azərbaycanın Forum çərçivəsində dünyaya təqdim edəcəyi zəngin təcrübəsi və innovativ yanaşmaları var. Belə ki, bu mühüm tədbirdə Azərbaycan dövləti tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misilsiz yenidənqurma və şəhərsalma modeli, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, bu regionların yaşıl enerji zonasına çevrilməsi ilə bağlı görülmüş işlər müasir urbanizasiya və ekoloji bərpa sahəsində qabaqcıl nümunələr kimi dünya ictimaiyyətinə təqdim ediləcək. WUF13, həmçinin WUF tarixində ilk dəfə Liderlər Sammiti seqmentinin proqrama daxil edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

### BAKININ ARTAN ROLU

WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın davamlı şəhər inkişafı məsələlərində inklüziv qlobal dialoq üçün beynəlxalq məkan kimi artan roluna dəlalət edir. Xatırladaq ki, bundan əvvəl Azərbaycan Qoşulmama Hərəkatı, COP29 kimi mühüm tədbirlərə ev sahibliyi edib. Bu, rəsmi Bakının həm də qlobal problemlərlə bağlı dialoqun təşkilində mühüm ev sahibi platformasına çevrildiyinin əyani göstəricisidir. WUF13 Azərbaycanın birbaşa diplomatik səyləri və vasitəçiliyi ilə uğurla yekunlaşan, iqlim dəyişiklikləri ilə mübarizə çərçivəsində tarixi razılaşmaların əldə edildiyi COP29-un davamı kimi də dəyərləndirilir. 2024-cü ildə COP29-un Bakıda keçirilməsi Azərbaycanın inklüziv dialoq üçün müxtəlif tərəfləri birləşdirən mərkəz kimi artan rolunu dünyaya nümayiş etdirdi. İndi isə WUF13 çərçivəsində beynəlxalq ictimaiyyəti ciddi narahat edən mühüm məsələlərin müzakirəsi gündəmdədir. Bakı ev sahibi kimi bu müzakirələrin layiqli və yüksək standartlarda təşkili, ümumiyyətlə Forumun yadda qalan nəticələrlə yekunlaşması üçün bütün zəruri şəraiti yaradıb.

# ŞƏHƏRSALMANIN NƏBZİ BAKIDA DÖYÜNƏCƏK

Bakı BMT-nin qlobal əhəmiyyətli WUF13 Forumuna ev sahibliyi etməyə hazırlaşır. WUF13 çərçivəsində həm gələcəyin urbanizasiya modelləri müzakirəyə çıxarılacaq, həm də işğaldan azad edilmiş ərazilərdəki unikal "ağıllı şəhər" təcrübəsi dünyaya nümayiş etdiriləcək.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Bakı BMT-nin Məskunlaşma Proqramının 13-cü Ümumdünya Şəhərsalma Forumuna (WUF13) ev sahibliyi etməyə tam hazırdır. 17-22 may tarixlərində Bakı Olimpiya Stadionunda keçiriləcək və "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz, dayanıqlı şəhərlər və məskənlər" mövzusuna həsr olunan Forum qlobal müzakirə mərkəzi olacaq.

**MARAFON XANKƏNDİDƏ YEKUNLAŞIB**

Tarixdə ilk dəfə Liderlər Sammiti formatında baş tutacaq tədbir dövlət başçılarını, beynəlxalq təşkilatları, urbanizasiya ekspertlərini və "Urban Expo" sərgisini bir araya gətirəcək. Tədbirə hazırlıq çoxşaxəli şəkildə davam edir. BMT-nin Vyana Ofisi və ATƏT-dəki təqdimatlardan sonra, aprelin 28-dən respublikamızda WUF13 festivallarına start verilib. Bakıdan başlayan və müxtəlif regionlarımızı əhatə edən bu təbliğat marafonu mayın 10-da Xankəndidə təntənəli şəkildə yekunlaşıb.

**"BÖLGƏMİZ ÜÇÜN MÜHÜM TARİXİ HADİSƏDİR"**

Milli Məclisin deputatı Tahir Mirkişilinin sözlərinə görə, WUF13-ün Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə təşkil olunması bölgəmiz üçün mühüm tarixi hadisədir. Bu, sadəcə ənənəvi beynəlxalq tədbir deyil, eyni zamanda region ölkələrinin qlobal şəhərsalma gündəliyinə daha fəal inteqrasiyası üçün real zəmindir: "Forum vasitəsilə ölkələrimiz yerli çağırış və prioritetlərini qlobal inkişaf hədəfləri ilə daha düzgün uzlaşdıra biləcəklər. Xüsusilə davamlı şəhərlərin qurulması, əlçatan mənzil təminatı, ekoloji tarazlıq, innovativ nəqliyyat və rəqəmsal xidmətlər sahələrində beynəlxalq təcrübədən faydalanmaq üçün geniş imkanlar yaranır. Bununla yanaşı, region dövlətləri öz unikal təcrübələrini qlobal müstəvidə bölüşərək bu prosesin fəal iştirakçısına çevriləcəklər".

## "BAKININ ROLU XÜSUSİ VURĞULANMALIDIR"

T.Mirkişilinin fikrincə, qlobal urbanizasiya prosesində paytaxt Bakının rolu xüsusi vurğulanmalıdır. Şəhərimiz belə bir mötəbər tədbirə ev sahibliyi etməklə həm beynəlxalq dialoq platformasına çevrilir, həm də öz inkişaf modelini dünyaya nümayiş etdirir: "Son illər Bakıda həyata keçirilən strateji infrastruktur layihələri, dövlət xidmətlərinin rəqəmsallaşdırılması və şəhər mühitinin yaxşılaşdırılması istiqamətində görülən işlər artıq beynəlxalq səviyyədə diqqət mərkəzindədir. Xüsusilə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarını tətbiq etməklə müasir və dayanıqlı şəhərsalma sahəsində yaratdığı yeni model WUF13 çərçivəsində beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla öyrəniləcək".

**DÜNYANIN ƏN NÜFUZLU PLATFORMALARINDAN BİRİ**

Millət vəkili Vüqar Rəhimzadə bildirdi ki, indiyədək ev sahibliyi etdiyi bütün beynəlxalq tədbirlərdə yüksək təşkilatçılıq qabiliyyəti və uğurlu nəticələri ilə seçilən Azərbaycan, bu dəfə də qonaqlarını yüksək səviyyədə qarşılamağa hazırdır. Dünyanın ən nüfuzlu platformalarından biri olan bu Forumun Bakıda keçirilməsi Azərbaycanın qlobal urbanizasiya proseslərinə verdiyi mühüm töhfənin və etibarlı tərəfdaş kimi qazandığı ali etimadın bariz göstəricisidir: "Müasir dövrdə qlobal iqlim dəyişiklikləri fonunda şəhərlərin dayanıqlı inkişafı bəşəriyyətin əsas prioritetinə çevrilib. Enerji səmərəliliyi, tullantıların idarə olunması, alternativ nəqliyyatın təşviqi və "yaşıl zona"ların genişləndirilməsi artıq beynəlxalq şəhərsalma siyasətinin ayrılmaz hissəsidir. WUF13 Azərbaycanın bu istiqamətdə mövcud potensialını və "yaşıl şəhər" konsepsiyasını qlobal ictimaiyyətə təqdim etməsi üçün unikal platforma olacaq".




## "AZƏRBAYCAN DÜNYAYA UNİKAL TƏCRÜBƏ BƏXŞ EDİR"

Deputat Aydın Mirzəzadə qeyd etdi ki, tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin zəngin şəhərsalma tarixinə və mədəniyyətinə beynəlxalq səviyyədə verilən yüksək qiymətin təzahürüdür: "Dövlət müstəqilliyimizin bərpasından sonra paytaxtımızın və regionlarımızın hərtərəfli inkişafı, o cümlədən infrastrukturun müasirləşdirilməsi xarici mütəxəssislərin diqqətini cəlb edir. Eyni zamanda, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı bərpa işləri ilə dünya şəhərsalma elminə unikal təcrübə bəxş edir. Bu baxımdan, Forumun məhz ölkəmizdə təşkili həm qlobal şəhərsalma prioritetlərinin müzakirəsinə, həm də iştirakçıların qabaqcıl Azərbaycan modeli ilə əyani şəkildə tanışlığına geniş imkan yaradacaq".



Aydın Mirzəzadə

**YENİ İNTELLEKTUAL MƏRHƏLƏNİN BAŞLANĞICI**

Millət vəkili Rövşən Muradov isə bildirdi ki, Bakıda keçiriləcək Forum sıradan bir beynəlxalq tədbir deyil. Bu, ölkəmizin müasir inkişaf fəlsəfəsinin, dövlət idarəçiliyi baxışının və gələcəyin şəhərlərinə dair strateji düşüncəsinin qlobal müstəvidə təqdim olunduğu mühüm tarixi platformadır: "Şəhərlər hər bir dövlətin sivilizasiya yaddaşıdır. Bu mənada, şəhərsalma yalnız binaların ucaldılması, yolların çəkilməsi və ya infrastrukturun genişləndirilməsi demək deyil. Bu, insan həyatının təşkili, təhlükəsizliyin, sosial ədalətin, ekoloji məsuliyyətin və gələcəyə inamın məkan üzərində ifadəsidir. Tarixən mədəniyyətlərin, ticarət yollarının və ideyaların qovuşduğu Bakının bu mötəbər Foruma ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun, yüksək təşkilatçılıq potensialının və urban inkişaf sahəsindəki yeni baxışının göstəricisidir".

R.Muradovun fikrincə, Forumun Azərbaycan üçün xüsusi əhəmiyyəti həm də ölkəmizin şəhərsalma sahəsində keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə bağlıdır. Bu cür qlobal tədbirlər milli şəhərsalma siyasətimizə bir neçə mühüm istiqamətdə təkan verəcək.



Rövşən Muradov

# SAMURAYLAR BÖYÜK OYUNA QAYIDIRLAR

Sanae Takaiçi İkinci Dünya müharibəsindən bəri ilk dəfə ölümcül silahların ixracına qoyulan qadağanı ləğv etməyə müvəffəq olub. Bu addım Yaponiyanın pasifist mövqeyindən əhəmiyyətli şəkildə uzaqlaşması anlamına gəlir.





AZƏR NURİYEV

Yaponiyanın Baş naziri Sanae Takaiçi qəbul etdiyi sürpriz qərarlar, qalmaqallı açıqlamalarla dünyanı şoka salmaqdadır. 2025-ci ilin oktyabr ayından etibarən Yaponiyanın ilk qadın Baş naziri kimi tarixdə yer alan Takaiçi sərt siyasi xətti və mühafizəkar baxışlarına görə seçilir.

**QONŞULARI QORXUYA SALAN "DƏMİR LEDİ"**

O, "dəmir ledi" statusunu doğrultmaqdadır. Takaiçinin bu ləqəblə anılmasının əsas səbəbi Böyük Britaniyanın sabiq baş naziri Marqaret Tetçeri özünə nümunə götürməsi və onun idarəçilik üslubundan ilham aldığını dəfələrlə bəyan etməsidir. Xüsusilə Çinə qarşı barışmaz mövqeyi, milli müdafiə məsələlərindəki qətiyyəti və ifrat mühafizəkar sosial baxışları ilə seçilən Sanae İkinci Dünya müharibəsindən bəri ilk dəfə Yaponiyada ölümcül silahların ixracına qoyulan qadağanı ləğv etməyə müvəffəq olub. Baş nazir bu addımın ölkənin müdafiə sənayesini gücləndirmək və müttəfiqlərlə təhlükəsizlik əməkdaşlığını dərinləşdirmək məqsədi daşıdığını bildirib. Artıq Yaponiya Avstraliya ilə milyardlarla dollar dəyərində üç idarə olunan raket freqatının satışı barədə razılığa gəlib. Avstraliya ilə yanaşı, Yeni Zelandiya, İndoneziya və Vyetnam kimi ölkələrin də Yaponiya istehsalı olan hərbi texnikaya maraq göstərdiyi qeyd olunur.

Yeni qaydaların mümkün tətbiqlərinə gəldikdə, Takaiçi tərəfdaş ölkələrlə ehtiyat hissələrinin və digər komponentlərin qarşılıqlı mübadiləsindən bəhs edib. Döyüş silahlarının Tokio ilə müqavilələr imzalayan ölkələrə tədarük ediləcəyi gözlənilir. Yaponiyanın hazırda 17 ölkə ilə belə müqavilələri var: ABŞ, Birləşmiş Krallıq, Avstraliya, Hindistan, Filippin, Fransa, Almaniya, Malayziya, İtaliya, İndoneziya, Vyetnam, Tailand, İsveç, Sinqapur, BƏƏ, Monqolustan və Banqladeş.

Bu addım sürətlə inkişaf edən qlobal silah bazarında yer tutmaq məqsədilə Yaponiyanın pasifist mövqeyindən əhəmiyyətli şəkildə uzaqlaşması anlamına gəlir. Məlum qərar "Mitsubişi" və "Kavasaki" kimi ağır sənaye şirkətlərinə ABŞ, Böyük Britaniya və Cənub-Şərqi Asiya ölkələrinə raket, təyyarə və gəmilərin əsas təchizatçısı olmağa imkan verir. Bu tarixi qərar qonşu dövlətlərdə ciddi narahatlıq yaradıb.

## 80 İLLİK PASİFİZMİN SONU

Yaponiyanın müdafiə mövqeyi 1947-ci ildə İkinci Dünya müharibəsindən sonrakı konstitusiyasına daxil edilib. Tokio müharibədən sonra beynəlxalq mübahisələrin həlli yolu kimi müharibədən imtina edib və heç vaxt müharibə potensialını qoruyub saxlamayacağını bildirib. Nəticədə 80 ilə yaxın müddətdə pasifizm Yaponiya kimliyinin bir hissəsinə çevrilib. Lakin son illər bu düşüncə tərzi tədricən dəyişməyə başlayıb. İlk olaraq 2014-cü ildə Baş nazir Şinzo Abe bütün hərbi satışlara qoyulan ümumi qadağanı yumşaldıb və bu, Yaponiyaya müttəfiqləri ilə birgə silah istehsal etməyə, müdafiə sənayesinə yeni bazarlara və texnologiyalara çıxış imkanı yaratmağa imkan verib. 2023-cü ildə Abenin sələfi olan Fumio Kişida İkinci Dünya müharibəsindən bəri ilk dəfə hazır ölümcül silahların ixracına icazə vermək üçün daha bir addım atıb. Takaiçi isə daha irəli gedərək pasifist konstitusiyanın yenidən nəzərdən keçirilməsini dəstəkləyib.



Sanae Takaiçi

O, təklif olunan dəyişiklikləri dəqiqləşdirməsə də, çoxları bunun müharibədən imtina edən 9-cu maddə ilə bağlı olacağını düşünür.

Takaiçinin tərəfdarları deyirlər ki, Yaponiya Çin, Rusiya və Şimali Koreya ilə əhatə olunmuş bir ölkə kimi yeni reallıqla üzləşməlidir. Tənqidçilər isə Yaponiyanın müharibəyə qadir bir ölkəyə çevrilməsindən narahatdırlar. Onlara görə, Takaiçinin konstitusiya islahatları ilə bağlı mövqeyi Yaponiyanın hərbi münaqişələrə cəlb oluna biləcəyi anlamına gələ bilər.

Yaponiyanın bu addımı regionda gərginliyin artdığı bir vaxta təsadüf edir. Baş nazir bildirib ki, 80 ildən çoxdur sülhsevər bir millət olaraq izlədikləri yolu və təməl prinsipləri dəstəkləmək öhdəliklərində dəyişiklik yoxdur. Nazirlər Kabinetinin katibi Minoru Kihara brifinqində bildirib ki, atılan addım "Yaponiyanın təhlükəsizliyini qorumaq və regionda sülh və sabitliyə töhfə vermək məqsədi daşıyır".

## ÇİN VERİLƏN QƏRARLARDAN NARAHATDIR

Çin Yaponiyanın "ehtiyatsız hərbiləşdirilməsi"ndən "ciddi narahatlığını" bildirib. Pekinin Xarici İşlər Nazirliyi təmsilçisi bildirib ki, Çin son dərəcə ayıq qalacaq və bu hərəkətə qətiyyətlə qarşı çıxacaq.

Yeni silah ixracı qaydaları Yaponiyanın Özünümüdafiə Qüvvələrinin ABŞ və Filippin ilə keçirilən illik hərbi oyunlarda iştirakı ilə elan edilib. Yaponiya ilk dəfə olaraq bu oyunlara müşahidəçi kimi deyil, döyüşçü kimi qatılır. Çin təlimlərə qarşı çıxıb və bunun bölgədəki bölünmələri dərinləşdirəcəyini bəyan edib.

**DÜNYANIN YEDDİNCİ ƏN GÜCLÜ ORDUSU**

Yaponiya Özünümüdafiə Qüvvələri (JSDF) "Global Firepower 2026" reytinqinə görə dünyanın yeddinci ən güclü ordusudur və yalnız nüvə silahlarına görə Fransa ordusundan bir pillə geridədir. Səkkizinci yerdə olan Britaniya qüvvələri, nüvə silahlarının mövcudluğuna baxmayaraq, yaponlardan geridə qalırlar. JSDF-nin tərkibinə 250.000-ə qədər əsgər və dənizçi, 700-dən çox tank, 600-dən çox piyada döyüş maşını və digər zirehli texnika, 1000-dən çox təyyarə (silahlı qüvvələrin bütün qolları üzrə) və təxminən yüz helikopter daxildir.

Beləliklə, İkinci Dünya müharibəsindən bəri ilk dəfə olaraq "samuraylar" müstəqil hərbi güc kimi böyük oyuna qayıdırlar.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# ERMƏNİSTANIN YENİ "XİLASKARI"

Bölgədə sülh təşəbbüslərinin pozulmasına yeni cəhdlər edilir. Bu dəfə də əsas aparıcı rolunda Fransa Prezidenti Emmanuel Makrondur. Paris İrəvanı özünün Cənubi Qafqazdakı yeni koloniyası elan etməyə hazırlaşır.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin Zəngilan səfəri zamanı səsləndirdiyi bəyanatlar Azərbaycanın izləyəcəyi regional siyasətin və sülh prosesinin gələcək konturlarını bir daha ortaya qoymuş oldu. Xüsusilə də yaranmış həssas vəziyyətdən öz maraqları naminə istifadə etməyə çalışanların mövcud olduğuna eyham vuran bəyanatların əsas ünvanı yenə də Fransa və reytinqi ölkəsində yerlə bir olmuş Prezident Emmanuel Makron idi.

**"ERMƏNİSTANI XİLAS EDƏN QƏHRƏMAN"**

Hazırda Ermənistanda seçki ab-havası var. Belə bir vəziyyətdə bölgədə maraqlı olan qüvvələrin fəallaşması normal qarşılana bilər. Lakin Fransa rəhbərliyinin atdığı addımlar Cənubi Qafqazda sülh və sabitlik üçün müəyyənləşdirilmiş qırmızı xətlərə ciddi təhdid yaratmaqdadır. Burada Ermənistanın bir dövlət olaraq oynadığı "rol" da özünəməxsusluğu ilə seçilir. İşğal dövründə əsas ağalarının Rusiya olmasına arxalanan erməni cəmiyyəti indi Makronun timsalında "Ermənistanı xilas edən qəhrəman" tapıb. Fransa Prezidenti bölgədə Rusiyanın zəiflədiyini düşünərək bu boşluğu nəyin bahasına olursa olsun doldurmağı qarşısına məqsəd qoyub.

Azərbaycana münasibətdə 2020-ci ildəki tarixi qələbə-mizdən sonra bütün maskaları ataraq əsl niyyətini ortaya qoyan Fransa rəhbərliyinin planları heç bir işə yaramadı. Ölkənin ali rəhbərliyinin qətiyyətli siyasi iradəsi, diplomatik gedişləri və uzaqgörən siyasəti dövlətimizin milli maraqlarını hədəfə almaq hesabına olsa belə Makronun Cənubi Qafqazın yeni ağası olmaq planlarını tamamilə puç etdi. Belə bir vəziyyətdə Parisin əsas diqqəti İrəvana yönəlib.

**AZƏRBAYCAN ÜZƏRİNDƏN QURULAN MƏKRLİ PLAN**

Fransa Ermənistanı sürətlə silahlandırmağa çalışır. Son bir neçə ildə İrəvana ötürülən silahların miqdarı, bu sahədə qarşılıqlı hərbi-texniki əməkdaşlıq müqavilələrinin imzalanması əsl niyyətin açıq götəricisidir. Əsas məqsəd Azərbaycanın təhlükə mənbəyi olduğunu iddia edərək Ermənistan cəmiyyətində xilaskar obrazını və statusunu əldə etməkdir. Halbuki Vaşinqton görüşündən sonra Azərbaycan Ermənistana hücum etmək niyyətinin olmadığını, sülh prosesinə sadiq olduğunu dəfələrlə bəyan edib.



## Revanşistləri həvəsləndirmək cəhdi

Təbii ki, rəsmi Bakı prosesləri diqqətlə izləyir və proseslərin istənilən inkişafına hazırdır. Sadəcə Makronun planları tək Nikol Paşinyana dəstəyi ehtiva etmir. İrəvanın silahlandırılması seçki prosesində müşahidə olunduğu kimi Ermənistandakı revanşist qüvvələri də hərəkətə gətirib. Onlar yenidən Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edir və sülh prosesini tanımayacaqlarını bəyan edirlər. Makronun bu bəyanatlar fonunda sözdə sülhə dəstək verdiyini açıqlamasına baxmayaraq, revanşistlərə münasibətdə susqunluq nümayiş etdirməsi əslində onun iki ölkə arasındakı münaqişənin yenidən alovlanmasında nə dərəcədə maraqlı olduğunu göstərir.

## "Ermənistanı bizdən qorumaq lazım deyil"

Azərbaycan bu planlardan və hədəflərdən xəbərdardır. Prezident İlham Əliyevin Zəngilan səfəri zamanı səsləndirdiyi fikirlər əslində Ermənistan dövlətinə və xalqına saxta qəhrəmanların toruna düşməməsi üçün siyasi bir dərs də sayıla bilər. Dövlət başçısı bir daha xatırladıb ki, sülhün müəllifi Azərbaycandır. Azərbaycan istəməsəydi, sülh də olmayacaqdı: "Bu gün Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə elə həmin liderlər idi də öz ölkələrində hakimiyyət başında, gəlib yiyə duraydılar da Ermənistana. Boşboğazlıqdan başqa heç nə yoxdur. Onların da işi-gücü boşboğazlıqdır, ona görə öz ölkələrində onların dəstək əmsalı 10-15 faizdir. İndi guya ki, Ermənistanı bizim əlimizdən onlar çıxarıb xilas ediblər". Prezident bəyan edib ki, Ermənistanı bizdən qorumaq lazım deyil: "Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə. Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq".

İndi isə seçim yenə də Ermənistan rəhbərliyi və xalqınındır. Vaxtilə ağır məğlubiyyətdən sonra köhnə və yeni ağalarına arxalanaraq sülhdən yayınmağa çalışmağın heç bir nəticəsinin olmadığı kimi təcrübə ortadadır. Daha sonra Azərbaycanın təklif etdiyi ikitərəfli birbaşa danışıqlar formatı çərçivəsində əldə olunan tarixi razılaşmalar və defakto sülh vəziyyəti də ortadadır. Azərbaycanın irəli sürdüyü, real hədəflərə, Ermənistan üçün sülh və iqtisadi inkişafa əsaslanan seçim imkanın alternativi isə İrəvanı özünün yeni koloniyası elan etməyə hazırlaşan Makron Fransasının dumanlı təşəbbüsləridir. Həyat yoldaşı tərəfindən təyyarədə şillələnərək bütün dünyada rəzil olan, son Afrika səfəri zamanı heç bir çərçivəyə sığmayan davranışları ilə hətta ölkəsində belə ciddi tənqidlərlə üzləşən, Ermənistan-Türkiyə sərhədini qarşı tərəfin iradəsini heçə sayaraq keçməyə çalışan Makronun İrəvana vəd etdiyi "yeni fransız quberniyası olmaq" təklifinin erməni xalqı üçün hansı fəsadlara yol açacağını proqnozlaşdırmaq o qədər də çətin deyil.

HANTAVİRUSUN İNSANDAN İNSANA ÖTÜRÜLMƏSİ SON DƏRƏCƏ NADİRDİR

# HANTAVİRUS NARAHATLIĞINA ƏSAS YOXDUR

Hantavirusla bağlı əsas yanaşma təşviş yaratmaq deyil, maarifləndirmə və düzgün profilaktik davranışların formalaşdırılmasıdır. Gəmiricilərlə təmasdan yayınmaq, riskli məkanlarda ehtiyatlı davranmaq və gigiyenik qaydalara əməl etmək yoluxmanın qarşısının alınmasında ən vacib faktorlar hesab olunur.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Son günlər sosial şəbəkələrdə və beynəlxalq mediada hantavirusla bağlı məlumatlar diqqət çəkir. Gəmidə qeydə alınan yoluxma hadisəsi isə mövzu ətrafında müzakirələri genişləndirərək beynəlxalq diqqəti bu istiqamətə yönəldib. Gəmi hadisəsi yeni risk dalğasının başlanğıcıdırmı?

Səhiyyə Nazirliyindən verilən məlumata görə, hazırda ölkəmizdə hantavirus infeksiyası ilə bağlı epidemioloji vəziyyət sabitdir və narahatlıq üçün əsas yoxdur: "Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, qurum Beynəlxalq Tibbi-Sanitar Qaydalar çərçivəsində müxtəlif ölkələrlə birlikdə profilaktik və sürətli cavab tədbirlərini koordinasiya edir. Qeyd olunur ki, insanlar adətən hantavirus daşıyıcısı olan gəmiricilərin sidiyi, nəcisi və ya tüpürcəyi ilə təmas zamanı, o cümlədən gəmiricilərin ifrazatı ilə qarışmış tozun nəfəs yolu ilə qəbul edilməsi nəticəsində yoluxurlar. Virusun insandan insana ötürülməsi son dərəcə nadirdir və yalnız Amerikada rast gəlinən Andes növü ilə əlaqədar müşahidə edilir".

### "AZƏRBAYCAN HANTAVİRUS ÜZRƏ ENDEMİK BÖLGƏ HESAB OLUNMUR"

Nazirliyin məlumatına əsasən, Azərbaycan hantavirus üzrə endemik bölgə hesab olunmur və ölkə ərazisində yaşayan gəmiricilər arasında bu virusa rast gəlinmir: "Bu səbəbdən ölkəmizdə hantavirus infeksiyası rutin laborator müayinə panellərinə daxil deyil. Bununla belə, Azərbaycanda həm insan, həm də heyvan sağlamlığı üzrə laboratoriyalarda hantavirusun müayinəsi üçün bütün texniki imkanlar mövcuddur. Səhiyyə Nazirliyi bu məsələdə ÜST-ün tövsiyələrini rəhbər tutur və onunla qarşılıqlı əməkdaşlıq edir. Zəruri olduğu təqdirdə (məsələn, müvafiq klinik əlamətləri olan və epidemioloji baxımdan riskli ölkələrdən gələn şəxslər) klinik protokollara uyğun şəkildə müayinələr təşkil ediləcək. Mövcud vəziyyət ölkə əhalisi üçün hər hansı əlavə risk yaratmır".

### "Yeni yoluxma hallarının qeydə alınması mümkündür"

ÜST-ün baş direktoru Tedros Adhanom Qebreyesus bildirib ki, hazırkı vəziyyət genişmiqyaslı epidemiyaya işarə etmir, lakin inkubasiya müddətinin uzun olması səbəbindən yaxın həftələrdə yeni halların ortaya çıxması mümkündür. Sosial şəbəkələrdə hantavirusun "yeni pandemiya" olacağı barədə çox emosional paylaşımlar yayılır. Amma epidemioloqlar bildirirlər ki, virusun genişmiqyaslı pandemiyaya çevrilmə ehtimalı xeyli aşağı hesab olunur. Bunun əsas səbəbi insandan insana yoluxmanın məhdud olmasıdır.

İnfeksionist Vasif Əliyev bildirir ki, hantavirus əsasən gəmiricilər vasitəsilə insanlara keçir: "Xəstələrdə yüksək hərarət, baş və əzələ ağrıları, halsızlıq, başgicəllənmə və nəfəsalma çətinliyi müşahidə olunur. Xüsusilə Amerika qitəsində yayılan hantavirus növləri digərlərinə nisbətən daha ağır keçir".

### YOLUXMANIN ƏSAS MƏNBƏYİ

İnfeksion xəstəliklər və klinik mikrobiologiya üzrə mütəxəssis Hüsrev Diktaş bildirib ki, hantavirusun COVID-19 kimi qlobal pandemiyaya çevrilmə ehtimalı aşağı qiymətləndirilir. Onun sözlərinə görə, xəstəlik ilkin mərhələdə hərarət, ishal, ürəkbulanma və qusma kimi qeyri-spesifik simptomlarla özünü göstərə bilər ki, bu da diaqnozu çətinləşdirən əsas amillərdəndir: "Sonrakı mərhələdə tənəffüs çatışmazlığı, qanaxma və böyrək funksiyalarının pozulması kimi ağır klinik fəsadlar inkişaf edə bilər".

Mütəxəssis vurğulayır ki, yoluxmanın əsas mənbəyi gəmirici ifrazatları ilə çirklənmiş mühitdir. İnfeksionist risk qrupuna daxil edilən qaraj, zirzəmi, anbar və uzun müddət istifadə olunmayan qapalı məkanların təmizlənməsi zamanı xüsusi ehtiyat tədbirlərinin görülməsini tövsiyə edir. Onun sözlərinə görə, belə yerlərdə maska və əlcəkdən istifadə olunmalı, birbaşa tozla təmas minimuma endirilməlidir.

## Təmizlik zamanı nələrə diqqət edilməli?



Vasif Əliyev

ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin (CDC) tövsiyələrinə görə, gəmirici ifrazatları ilə çirklənmiş səthlər quru şəkildə süpürülməməli və ya tozsoranla təmizlənməməlidir.

Bu, virus ehtimalı olan mikroskopik hissəciklərin havaya qalxmasına və nəfəs yolu ilə yoluxma riskinin artmasına səbəb ola bilər. Əvəzində səthlər əvvəlcə dezinfeksiyaedici məhlulla isladılmalı, daha sonra qoruyucu vasitələrlə diqqətlə təmizlənməlidir.

Riskli hesab edilən qapalı məkanlarda təmizlik zamanı havalandırma, əlcək və maska istifadəsi kimi sadə, lakin effektiv qoruyucu tədbirlər əsas rol oynayır. Bu qaydalara əməl edilməsi yoluxma riskini əhəmiyyətli dərəcədə azaldır.

Ümumilikdə ekspertlər vurğulayırlar ki, hantavirusla bağlı əsas yanaşma təşviş yaratmaq deyil, maarifləndirmə və düzgün profilaktik davranışların formalaşdırılmasıdır. Gəmiricilərlə təmasdan yayınmaq, riskli məkanlarda ehtiyatlı davranmaq və gigiyenik qaydalara əməl etmək yoluxmanın qarşısının alınmasında ən vacib faktorlar hesab olunur.



Hüsrev Diktaş

## “BİZİM MİLLƏT HƏR ŞEYİ SƏRRAF DƏQİQLİYİ İLƏ GÖRÜR VƏ ÖZÜNÜNKÜLƏŞDİRİR”

# “MƏN ATA-BABAMIN DAVAMÇISI OLMAQ İSTƏDİM”



HAZIRLADI
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Xalq artisti Eldar Mansurov:**
“Mansurovların musiqi irsini davam etdirmək mənim üçün böyük şərəf və məsuliyyət olub. Babamın 115 illik yubileyi keçiriləndə nəvələrimi də tədbirə apardım. “Qoy eşitdikləri yaxşı şeylər onların yaddaşında qalsın”, - deyə düşündüm”.



“Məktəbdə qonaq olan hər bir elm və sənət adamı, hər bir görkəmli bəstəkar, yazıçı və ya idmançı ömürlük şagirdlərin yaddaşına yazılır. Bu insanların həyat və yaradıcılıq yolu, qazandığı uğurlar məktəblilər üçün əsl örnəyə çevrilir”. Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin reallaşdırdığı “Məktəbdə...” layihəsinin növbəti qonağı tanınmış bəstəkar, Xalq artisti Eldar Mansurov şagirdlərlə görüşünü ən gözəl xatirə adlandırdı.

Mərdəkan qəsəbəsindəki Süleyman Rüstəm adına Xarici Dillər təmayüllü Gimnaziyada keçirilən görüşdə bəstəkar öz mahnılarının melodiyası ilə qarşılandı.

### O GÜNLƏR GERİ QAYITMIR...

“Mən də hamı kimi uşaq olmuşam. Bir az dəcəl idim. Oğlan uşaqları dəcəl olur. Amma bizim dövrümüzdə dəcəllik başqa cür idi...” - deyə qonaq uşaqlıq illərini xatırladı: “Sizin dəcəllik daha çox intellektualdır. O vaxt telefon, planşet yox idi, küçə oyunları vardı. Biz küçədə futbol və digər oyunlar oynayırdıq. İndi uşaqların küçədə futbol oynamaq üçün yerləri yoxdur. Hər tərəfdə göydələnlər tikildiyindən oyun üçün yerlər qalmayıb. Yadımdadır, dərsdən qaçıb kinolara gedərdik. İndi kinolara gedən də yoxdur. Uşaqlığımız xoşbəxt keçirdi. Uşaqlıq xoşbəxtliyi ayrı şeydir. O günlər bir də geri qayıtmır. Odur ki, uşaqlığınızın qədrini bilin...”

E.Mansurov yaddaşında qalan təhsil aldığı orta məktəblə bağlı da xatirələrini bölüşdü: “40 ildən sonra oxuduğum 190 saylı məktəbə getdim. “Köhnə müəllimlərimdən hansınısa görəcəyəm və ya keçmişdən olan bir şeylə qarşılaşacağam”, - deyə düşünürdüm. Amma gördüm ki, bizim müəllimlərdən heç kim yoxdur, hamısı dünyasını dəyişmişdi. Təkcə sinif müəllimim qalmışdı. Oturub müəllimimlə söhbət etdim. Dedi ki, indi burada sənin müəllimlərinin övladları dərs deyir. Bu, mənə həm xoş, həm də ağır idi. Amma ondan sonra daha məktəbə getmədim. Çünki o illəri yada salmaq çox çətindir, adamı duyğulandırır. Mən duyğulanmaqdan yorulmuşam...”

### “O SƏHNƏDƏ HANSI KORİFEYLƏRİ GÖRMƏMİŞDİM?”

Qonaq sözünə davam edərək musiqini uşaqlıqdan sevdiyini söylədi: “Bağça yaşlarımda atam Bəhram Mansurov məni özü ilə Opera Teatrına apardı. O, teatrın solist-tarzəni idi. Müslüm Maqomayevin operalarında tar parçalarını ifa edirdi. Mənim üçün yanlarında balaca “taburetka” qoyub otuzdururdular. Evimizdə də, o səhnədə də muğamı dinləyirdim. O səhnədə hansı korifeyləri görməmişdim? Onlar bizim evimizə də gəlirdilər. Bütün bunlar mənim musiqiyə, muğama olan sevgimi formalaşdırdı. Mənim 16 yaşım olan ildə Bakıda estrada musiqi festivalları, “Qızıl payız” festivalı keçirilirdi. Mən həmin festivallarda müxtəlif qrupların heyətində iştirak edirdim. O qruplarda müxtəlif janrda musiqilər ifa edilirdi. Məktəb yaşlarında estrada musiqilərinə böyük həvəsim vardı. O zaman “Bitlz” qrupu çox populyar idi. Biz də o cür qrupları sevirdik. Asəf Zeynallı adına Musiqi Məktəbində oxuyanda klassik musiqi təhsili aldım. Yavaş-yavaş həm musiqinin nəzəriyyəsini öyrənməyə başladım, həm də bəstəkarlığa keçdim. Düşünürdüm ki, ciddi musiqi yazacağam - opera, balet, xor, operetta... Amma belə oldu ki, yolumu kəsdilər. “Əvvəlcə mahnı yaz, görək necə yazırsan, sonra sənin ciddi musiqilərinə baxarıq...” - deyildi. Mən küsdüm”.

> “Düşünürdüm ki, ciddi musiqi yazacağam - opera, balet, xor, operetta... Amma belə oldu ki, yolumu kəsdilər. “Əvvəlcə mahnı yaz, görək necə yazırsan, sonra sənin ciddi musiqilərinə baxarıq...” - deyildi.”

### “İNDİ ARTIQ MAHNI YAZMIRAM”

Bəstəkar bundan sonra evdə özü üçün işləməyə başlayıb: “Bir gün anam mahnı yazmağımı istədi. İlk mahnım yaradıcılığımda uğurlu oldu. Mahnılarımı Azərbaycanın ən məşhur ifaçıları oxudular. Yalçın Rzazadə, Elmira Rəhimova, Flora Kərimova, Mirzə Babayev, Akif İslamzadə üçün yazmağa başladım. Beləcə mənə həvəs gəldi. Daha sonra Brilyant Dadaşova, Aygün Kazımova, Faiq Ağayev kimi məşhur müğənnilərlə mahnı yaradıcılığıma davam etdim. Uzun illər mahnı yazdım. İndi artıq mahnı yazmıram. Simfonik musiqiyə meyl edirəm. Çünki mahnı janrında artıq sözümü demişəm. Bir çox mahnılarım təkcə Azərbaycanda deyil, xaricdə də səslənir. Əlbəttə, Azərbaycan simfonik musiqisi Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Arif Məlikov, Aqşin Əlizadə kimi görkəmli bəstəkarlarla tanınıb. Musiqimiz xaricdə məhz bu bəstəkarlarla təmsil olunurdu. Onlardan sonra Azərbaycan musiqisini xaricdə tək-tək adamlar təmsil edirlər. Mən də özümü o böyük bəstəkarların işini davam etdirməyə həsr etdim: yalnız klassik musiqi yazmağa başladım. İndi daha çox xaricdə konsertlər keçirirəm. Son illər Macarıstan, İtaliya, Türkiyə kimi ölkələrdə konsertlərim olub. Xaricdə dinləyicilər klassik musiqiyə üstünlük verirlər. Simfonik orkestrin müşayiəti ilə keçirilən konsertlər anşlaqla keçir. Həmişə yenilənmiş proqramlar təqdim etməyə çalışıram. Bizim estrada musiqisi ancaq öz dilimizdə səslənir, amma xaricdə dinlənilmək istəyirsənsə, onlar əsasən simfonik musiqiyə qulaq asırlar. Başqa xarici ölkələrdə də konsertlərim nəzərdə tutulur. Həmçinin bu yaxınlarda Bakıda mahnılarımdan ibarət bir konsertim olacaq. İndi bir sıra gənc müğənnilər - Aysel Teymurzadə, Nigar Camal, Eldar Qasımovun ifasında mahnılarım səslənir”.

### “ÇOX İSTƏRDİM Kİ, NƏVƏLƏRİM DƏ BƏSTƏKAR OLSUNLAR”

Bəstəkar bildirdi ki, uğurlu mahnının taleyi ifaçıdan da asılıdır: “Rəssamın ən gözəl əsəri fırçadan, kətandan ya rəssamdan asılıdır? Bunlar hamısı biri-birini tamamlayır. Yəni kətan, fırça olmasa, rəssam necə çəkəcək? Mahnı da belədir: şair sözlərini, bəstəkar musiqini yazır - buna ruh verən isə ifaçıdır. İfaçı ya o mahnını hamı üçün populyarlaşdırır, ya da camaatın gözündən salır”.

E.Mansurov musiqi sənətində atası, babası və ulu babasının onun idealı olduğunu bildirdi: “Mən ata-babamın davamçısı olmaq istədim. Mansurovların musiqi irsini davam etdirmək mənim üçün böyük şərəf və məsuliyyət olub. Çox istərdim ki, nəvələrim də bəstəkar olsunlar. Babamın 115 illik yubileyi keçiriləndə nəvələrimi də tədbirə apardım. “Qoy eşitdikləri yaxşı şeylər onların yaddaşında qalsın”, - deyə düşündüm. İnsan beyni sandıq kimidir. Bir gün o xatirələr elə bir küncdən çıxacaq ki...”

### “İNDİKİ MUSİQİLƏRİN ÇOXU BAYAĞIDIR”

Qonaq şagirdlərə mütaliə ilə bağlı məsləhətlərini verdi: “Mən çox kitab oxumuşam. Yaxşı ilə pisin fərqini ayırd etmək üçün bəzən yaxşı və pis kitabları da oxumuşam. Pis kitablar da kimin üçünsə yazılır. Mən daha çox uşaqların mənəvi qidalanmasının tərəfdarıyam. Riyaziyyat, fizika kimi fənlər onsuz da irəli gedəcək. Ona görə mənəvi tərəfi boş buraxmaq lazım deyil. Yaxşı musiqiyə qulaq asın, yaxşı filmə baxın. “Babək”, “Nəsimi” filmlərinə baxmışınız? O filmlərə baxanda orada səslənən musiqiləri yadınızda saxlayın. Bunlar sizin gələcəkdə şəxsiyyəti kimi yetişməyinizə kömək edəcək”.
E.Mansurov hazırda yazılan musiqilərə diqqət çəkdi: “Bizim köhnə klassik musiqiləri dinləyin. İndiki musiqilərin çoxu bayağıdır. Onların başına elə bir oyun açırlar ki, toyxana mahnılarına çevrilir. Bununla zövqü formalaşdırmaq olmaz. Onlar bir saatlıq musiqilərdir. Elə mahnılar var ki, onları dəyişmək olmaz. Məsələn, Şövkət Ələkbərovanın oxuduğu mahnını cavanlardan kimsə rəqs musiqisi kimi edib. O, sizin yadınızda qalmayacaq. Qara Qarayev deyəndə indiki gənclik “metro Qarayev”i düşünür. Bilmirlər ki, o, Azərbaycanın görkəmli bəstəkarıdır. Qara Qarayev, Fikrət Əmirov, Cahangir Cahangirov, Cövdət Hacıyev kimi bəstəkarların əsərləri hər zaman üçün klassikdir. Siz həm də təkcə klassik Azərbaycan musiqisini dinləməyin, dünya musiqisinə qulaq asın. Mən daha çox klassik musiqiləri xoşlamışam”.



Fotolar: Mahir Rüstəmov/Global Photostock

## Hamının canındakı vətənpərvərlik

Bəstəkar şagirdlərə yaradıcılığında mühüm yer tutan vətənpərvərlik mahnılarından da danışdı: “Vətənpərvər musiqi hamının canında var. Cavanşir Quliyevin “Əsgər marşı”nı eşitməyən varmı? Mənim “Qalx, qalx, ulu torpaq” mahnımı Mübariz Tağıyev oxudu. O mahnını hamı eşidib. Bu gün o mahnını çox müğənni oxuyur. Bunlar Birinci Qarabağ müharibəsi zamanı yazılan mahnılar idi. O zaman yazdığım “Yada sal” mahnısı İkinci Qarabağ müharibəsi zamanı populyarlaşdı. Bu mahnı şəhidlərə həsr olunmuşdu. Hər mahnının öz vaxtı var. 30 il sonra bu mahnı qəbul olundu. Bizim millət hər şeyi sərraf görür və özününküləşdirir. Çox xoşbəxtəm ki, bu mahnı da camaatımız tərəfindən sevildi. Bu mahnıları sevgi və məişət mahnılarından üstün tutun. Bu mahnılar bizi sevindirir, kədərləndirir və ruhlandırır. Bizi yaşadan belə musiqilərdir...”

### “ƏSƏR BARMAQLARIMDAN SÜZÜLÜBSƏ, ONLARIN HAMISINI SEVİRƏM”

E.Mansurov bəstəkarın yaradıcılıq ilhamına toxunaraq bunun üçün hazır bir reseptin olmadığını dedi: “Heç kəs deyə bilməz ki, mən oturdum belə yazdım və ya yazmaq istəyirəm. Qarşına qələm, kağız qoyub “indi mən musiqi yazacağam” deyə yazmaq olmur. Hər hansı musiqi nədənsə duyğulananda yaranır. Amma yaradıcılıqda maraqlı bir paradoks da var: bir də görürsən ki, çox kədərli bir halın var. Oturursan yazmağa, şən bir musiqi alınır. Elə məqam olur ki, sən heç yazmağı düşünmürsən, amma hansısa hadisənin, anın təsiri altında piano arxasına keçirsən...”

Bəstəkar onun üçün bütün əsərlərinin sevimli və doğma olduğunu söylədi: “Əgər o əsər mənim barmaqlarımdan süzülübsə, onların hamısını sevirəm. Mənim üçün “güclü” və “zəif” əsər yoxdur. Bu, bilirsiniz nəyə bənzəyir: iki övladdan biri xəstə olursa, onu sevməmək lazımdır? Hər ikisini eyni məhəbbətlə sevirsən. Ola bilər, siz o musiqini bəyənmirsiniz, amma mən bəyənirəm. Hamısı mənim üçün əzizdir”.

E.Mansurov bütün yaradıcılığı boyu Allah-təalanın ona arxa-dayaq olduğunu söylədi və Tanrıya şükürlər etdi: “İnsan dünyaya gələndə arxa-dayağı onun ata-anası olur. Zaman keçir, bir gün ata-ana dünyanı tərk edir. Və sən özün kiməsə arxa-dayaq olursan. Amma insanın həmişə bir dayağa ehtiyacı olur. Bu baxımdan, mən Allaha minnətdaram!”



# İNŞA EDİLƏCƏK STANSİYALARLA BAĞLI YENİLİK

Hazırda Bakı Metropoliteni dünyada xidmət göstərən 213 metropolitenlə müqayisədə sıxlıq dərəcəsinə görə top onluqda yerləşir. Bu sıxlığın azaldılması istiqamətində mühüm qərarların veriləcəyi bildirilir.



**Foto:** Rüfət Mikayılov / Global Photostock

"Bakı Metropoliteninin "bənövşəyi xətt"i üzrə inşa ediləcək yeni stansiyalarda yeddivaqonluq qatarlar hərəkət edəcək". Bunu Oxu.Az-a açıqlamasında "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.

**10 YENİ STANSİYA İNŞA EDİLƏCƏK**

O bildirib ki, yeni stansiyaların platformaları "qırmızı" və "yaşıl" xətt üzrə fəaliyyət göstərən stansiyaların platformasından böyük olacaq: "Hazırda istismarda olan "qırmızı xətt" üzrə stansiyaların platformalarının uzunluğu 102-105 metrdir. Həmin stansiyalar 5 vaqonluq qatarlar üçün nəzərdə tutulub. Amma "bənövşəyi xətt" üzrə inşa edilən və yeni tikiləcək stansiyaların platformalarının uzunluğu 144 metrdir. Həmin xətt üzrə hərəkət edəcək qatarlar yeddi vaqondan ibarət olacaq".

B.Məmmədov bildirib ki, yeni inşa ediləcək "yaşıl xətt" üzrə stansiyalar da beşvaqonluq qatarlar üçün nəzərdə tutulacaq. Xatırladaq ki, 2030-cu ilə qədər Bakı Metropoliteninin "yaşıl" və "bənövşəyi" xətləri üzrə 10 yeni stansiya inşa edilərək istifadəyə veriləcək.

**SIXLIĞA GÖRƏ TOP ONLUQDA**

Yeri gəlmişkən, "Bakı Metropoliteni" QSC-nin sədri Vüsal Aslanov da bir neçə gün əvvəl metroda gözlənilən keyfiyyət dəyişiklikləri barədə mətbuata danışıb. Onun sözlərinə görə, hazırda Bakı Metropoliteni dünyada xidmət göstərən 213 metropolitenlə müqayisədə, sıxlıq dərəcəsinə görə top onluqda yerləşir: "Qısa müddətdə infrastrukturu genişləndirmək mümkün olmadığını nəzərə alaraq, daha çox intervalları azaltmaqla sərnişin sıxlığını qismən aradan qaldırmaq istiqamətində işlər görülür".

## İNTERVALI DAHA DA AZALTMAQ ÜÇÜN...

Sədr bildirir ki, intervalı daha da azaltmaq üçün fundamental işlər görmək lazımdır. Birincisi, qatarları idarə edən işarəvermə sistemi yenilənməlidir - cari ildə bununla bağlı tender keçiriləcək və bu layihənin icrası gələcəkdə qatarlararası məsafəni qısaldıb intervalı azaltmağa imkan verəcək. İkincisi, xətlərin ayrılması məsələsidir: Qırmızı və Yaşıl xətlərimiz "28 May" stansiyasında birləşir və "28 May" - Həzi Aslanov" sahəsində texniki təhlükəsizliyi təmin etmək üçün 100–110 saniyəlik interval olması şərtdir. Nəzərə alsaq ki, bu qatarlar "İçərişəhər" və "Dərnəgül" istiqamətdən növbəli şəkildə gəlir, avtomatik olaraq həmin əks istiqamətdə intervalımız 200 saniyənin üzərində olur. Bu xətləri ayırmasaq, intervalı bundan aşağı salmaq imkanımız mümkün olmayacaq.

Hər bir xətt ayrıca müstəqil işləməlidir, müstəqil deposu olmalıdır. "Dərnəgül" deposunun tikintisi davam edir. Xətlər ayrıldıqdan sonra "28 May" stansiyası yalnız "İçərişəhər" istiqamətinə gedən qatarlardan istifadə edən sərnişinlər tərəfindən istifadə olunacaq. "Dərnəgül" istiqamətinə gedən sərnişinlər isə "Cəfər Cabbarlı" stansiyasından istifadə edəcəklər. "Cəfər Cabbarlı" ilə "28 May"ı birləşdirən əlavə bir sərnişin tunelini yay aylarında istifadəyə verəcəyik. Bu, xətlərin ayrılması layihəsi üzrə başa çatan ilk iş olacaq".

**SƏRNİŞİNLƏR METRODA BOŞ VAQONLARI ƏVVƏLCƏDƏN GÖRƏ BİLƏCƏKLƏR**

Vüsal Aslanov bildirib ki, yeni mobil tətbiq sərnişinlərə metrodan daha rahat və səmərəli istifadə imkanı yaradacaq: "Mobil tətbiqdə sərnişinlər QR-kod vasitəsilə ödəniş edə biləcəklər. Hansı stansiyadan hansı stansiyaya daha tez çatmaq, günün hansı vaxtı sıxlığın az və ya çox olduğunu qabaqcadan görmək, qatarın hansı vaqonunun nisbətən boş olduğunu əvvəlcədən bilmək imkanları olacaq".



Vüsal Aslanov



## SOCAR-IN PAVİLYONU ƏN YAXŞI SEÇİLİB

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Daşkənd şəhərində keçirilən "Özbəkistanın nefti və qazı (OGU-2026)" 28-ci beynəlxalq sərgi-konfransında iştirak edib.

Bu barədə "Report" SOCAR-a istinadən xəbər verir. Tədbir çərçivəsində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev SOCAR-ın prezidenti Rövşən Nəcəfi, bp şirkətinin baş vitse-prezidenti Ariel Floresi, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Ciovanni Kristofolini qəbul edib.

R. Nəcəf Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını çatdırıb.

Ş. Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

SOCAR prezidenti bp-nin baş vitse-prezidenti və şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti ilə birgə Özbəkistanın energetika naziri Jurabek Mirzamahmudov və "Uzbekneftegaz" ASC İdarə Heyətinin sədri Abdugani Sanginov ilə üçtərəfli görüşlər keçirib. Üçtərəfli görüşlərdən sonra bp şirkətinin "Üstyurt" investisiya bloklarının kəşfiyyatı, işlənməsi və hasilatı üzrə Pay Bölgüsü Sazişinə qoşulmasına dair sənədlər imzalanıb.

SOCAR prezidentinin "MOL Group" şirkətinin icraçı vitse-prezidenti Zsombor Marton ilə görüşündə şirkətlər arasında uzunmüddətli tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub, birgə həyata keçirilən layihələrin icra vəziyyəti nəzərdən keçirilib.

R. Nəcəf tədbir çərçivəsində OGU-2026 sərgisi ilə də tanış olub.

SOCAR sərgidə öz pavilyonu ilə təmsil olunub. Stenddə SOCAR-ın müxtəlif fəaliyyət istiqamətləri, Azərbaycanda və xarici ölkələrdə həyata keçirilən əməliyyatlar, neft və qaz boru kəmərləri sistemi, "yaşıl enerji" təşəbbüsləri, rəqəmsal həllər və digər strateji layihələri haqqında məlumatlar ziyarətçilərə təqdim edilib. Qeyd edək ki, SOCAR-ın pavilyonu OGU2026 beynəlxalq sərgisində "Ən Yaxşı Milli Stend Dizaynı" nominasiyası üzrə mükafata layiq görülüb.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 644
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# MÜVƏQQƏTİ DURĞUNLUQ, YOXSA YENİ TREND?

**Elektromobil idxalı kəskin şəkildə azalıb. "Yaşıl nəqliyyat"a olan kütləvi marağın qəfil səngiməsinin arxasında həm regionlardakı infrastruktur qıtlığı, həm də ləğv edilən vergi güzəştləri dayanır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar-mart ayları ərzində Azərbaycana ümumilikdə 339 milyon 631 min dollar dəyərində 15 351 ədəd avtomobil idxal olunub. Ötən ilin, yəni 2025-ci ilin eyni dövrü ilə müqayisə etdikdə aydın olur ki, ölkəyə idxal olunan avtomobillərin sayında 33,1% və ya 7 585 ədəd azalma var. İndi ən çox diqqət çəkən məqam bir müddət əvvəl bazarda böyük ajiotaj yaradan elektrik mühərrikli avtomobillərin gələcək taleyidir. Hesabat dövründə ölkəyə dəyəri 7 milyon 898 min dollar olan elektromobil gətirilsə də, illik müqayisədə bu seqmentdə də say baxımından 30,1% (129 ədəd) azalma qeydə alınıb. Görünən odur ki, Azərbaycanda elektromobillərə olan kütləvi maraq sürətlə səngiyir. Bəs gördüyümüz bu mənzərə sadəcə müvəqqəti bir durğunluqdur, yoxsa uzunmüddətli və qalıcı bir trendin başlanğıcı?

### "ƏN HƏLLEDİCİ AMİL İNFRASTRUKTURLA BAĞLIDIR"

Nəqliyyat məsələləri üzrə mütəxəssis Eldəniz Cəfərovun sözlərinə görə, elektromobillərə olan marağın azalmasının arxasında dayanan ən başlıca və həlledici amil birmənalı olaraq infrastrukturla bağlıdır. Hazırda ölkəmizdə elektromobillər üçün həyati əhəmiyyət daşıyan enerji doldurma məntəqələrinin azlığı və sistemli şəkildə paylanmaması ən böyük problemdir: "Mövcud stansiyaların coğrafiyasına nəzər saldıqda aydın görünür ki, enerji doldurma məntəqələri əsasən Bakı şəhərində və Abşeron yarımadasında cəmləşib. Paytaxt daxilində gündəlik istifadə üçün bu infrastruktur qismən yetərli olsa da, məsələ digər şəhərlərə və bölgələrə səfər etməyə gəldikdə mənzərə dəyişir. Digər şəhərlərdə, ucqar bölgələrdə enerji doldurma stansiyalarının sayı barmaqla sayılacaq qədər azdır. Daha böyük problem isə ondan ibarətdir ki, hətta mövcud olan bəzi stansiyalarda belə zaman-zaman elektrik enerjisi ilə təminatda qırılmalar yaşanır, stansiyalar işlək vəziyyətdə olmur. Bütün bu amillər sürücülərdə psixoloji bir gərginlik - yolda qalmaq qorxusu yaradır".

E.Cəfərov bildirdi ki, bazardakı durğunluğa səbəb olan digər ən güclü amil birbaşa qiymət siyasəti və dövlətin tənzimləyici tədbirləridir: "Əvvəlki dövrlərdə xüsusi vergi və gömrük güzəştləri tətbiq olunmuşdu. Bu güzəştlər sayəsində elektromobillər bir çox rüsumlardan və ödənişlərdən azad edilmişdi ki, bu da onları alıcılar üçün maliyyə baxımından son dərəcə cəlbedici, rəqabətədavamlı və əlçatan edirdi. Lakin güzəştlərin müddəti başa çatıb. Bununla da avtomobillərin qiymətləri avtomatik olaraq əvvəlki səviyyələrinə qayıtdı. Qiymət üstünlüyünün aradan qalxması istehlakçıların qərarlarına anında təsir göstərdi. Bu da öz növbəsində həm idxal həcmində, həm də daxili satışlarda yavaşlama ilə nəticələndi".



### "BU TREND UZUNMÜDDƏTLİ VƏ YA QALICI DEYİL"

Mütəxəssisin fikrincə, ikinci əl avtomobil bazarında elektrik mühərrikli maşınlara tələb tam olaraq itməyib. Baxmayaraq ki, əvvəlki dövrlərə nisbətən bu tələb də azalıb, lakin ölkədə işlənmiş elektromobillərin alqı-satqısı hələ də davam edir: "Qiymət dinamikasında da hər hansı kəskin dəyişiklik müşahidə edilmir. Bunun əsas səbəbi daxili bazarda ikinci əl elektrik mühərrikli avtomobillərin ümumi sayının olduqca az olmasıdır. Təklifin məhdud olması səbəbindən, ümumi marağın azalmasının işlənmiş avtomobillərin qiymətinə təsiri də yalnız minimal səviyyədədir. Yəni, bazarda elektromobillərə marağın azalması o demək deyil ki, mövcud ikinci əl maşınların qiyməti kəskin şəkildə yüksələcək və ya panika nəticəsində kəskin şəkildə enəcək. Mövcud məhdud say və xüsusi alıcı kütləsi sayəsində bu seqmentdə qiymətlər əsasən sabit olaraq qalmağa davam edəcək".

E.Cəfərov qeyd etdi ki, yaranmış maneələrə və bazardakı mövcud passivliyə rəğmən, bu trend uzunmüddətli və ya qalıcı deyil. Əksinə, yaranmış vəziyyət müvəqqəti xarakter daşıyır: "Çünki problemin fundamental həlli yolları aydındır və zamanla həllini tapacaq. Gələcəkdə həm dövlət proqramları, həm də özəl sektorun investisiyaları hesabına enerji doldurma məntəqələrinin sayı artdıqca elektromobillərə olan yanaşma da dəyişəcək. Bugünkü durğunluq yalnız bazarın yeni mərhələyə və daha mükəmməl infrastruktura hazırlıq prosesidir".


Eldəniz Cəfərov

## "ARTIQ TƏKLİF" BAZAR TƏRƏFİNDƏN TƏDRİCƏN HƏZM EDİLİR"

İqtisadçı Asif İbrahimli isə düşünür ki, hazırda bazardakı vəziyyətə təsir edən ən mühüm amil vergi və gömrük siyasətidir. Elektromobillərin idxalı və satışı üzrə mövcud güzəştlərin ləğvi ilə bağlı qərar qüvvəyə minməzdən əvvəl bazarda ciddi bir təşviş və hərəkətlilik yaşandı: "Gələcək qiymət artımından sığortalanmaq istəyən idxalçılar tərəfindən qısa müddət ərzində ölkəyə çox sayda avtomobil gətirildi. Bu kütləvi idxal dalğası bazarda təklifin süni şəkildə artmasına, dilerlərin anbarlarının və satış portfellərinin dolmasına səbəb oldu. Məhz bu səbəbdən, idxalın kəskin azalması əslində bazarın çökməsi və ya tələbatın tamamilə yoxa çıxması deyil. Bu, əvvəlki dövrdə formalaşmış nəhəng "artıq təklif"in bazar tərəfindən tədricən həzm edilməsi prosesidir".


Asif İbrahimli

### "ELEKTRİKLİ NƏQLİYYAT VASİTƏLƏRİNƏ MARAQ YENİDƏN ARTACAQ"

A.İbrahimlinin sözlərinə görə, elektromobillərin istismarı ilə bağlı bəzi fundamental suallar da alıcı davranışında ehtiyatlılığı artırır: "Xüsusilə batareyanın istismar müddəti və deqradasiyası, ölkədə ixtisaslaşmış servis imkanlarının tam formalaşmaması və ikinci əl bazarda bu avtomobillərin likvidliyi (asanlıqla satıla bilməsi) ilə bağlı narahatlıqlar potensial alıcıları ənənəvi mühərrikli maşınlara doğru geri çəkir. İkinci əl avtomobil bazarına gəldikdə isə vəziyyət fərqli bir rəng alır. İkinci əl elektrikli avtomobillərə tələbat tam olaraq itməyib, lakin əvvəlki kütləvi xarakterini itirərək daha spesifik və seçici bir mahiyyət qazanıb. Düzdür, bazarda bəzi köhnə və ya resursu tükənmiş modellərdə qiymətlərin enməsi müşahidə olunur. Zənnimcə, bu, təbiidir. Lakin texniki göstəriciləri qənaətbəxş olan, xüsusən də batareya vəziyyəti (sağlamlığı) yaxşı səviyyədə qorunmuş avtomobillər bazarda aktiv şəkildə maraq doğurmaqda davam edir və öz dəyərini itirmir".

İqtisadçının fikrincə, mövcud azalma uzunmüddətli mənfi trend kimi qiymətləndirilməməlidir. Qlobal tendensiyalar, dünyanın hər yerində ekoloji tələblərin güclənməsi fonunda elektrikli nəqliyyat vasitələrinə maraq orta və uzun müddətdə mütləq şəkildə yenidən artacaq: "Azərbaycanda da bu müsbət dinamikanın bərpası qaçılmazdır, lakin bu proses birbaşa olaraq infrastrukturun respublika üzrə genişlənməsindən və dövlət tərəfindən həyata keçirilə biləcək mümkün yeni dəstək tədbirlərindən asılı olacaq".

# "BORCLA YAŞAMAQ" MODELİ ZƏİFLƏYİR



Statistik göstəricilərə əsaslansaq, Azərbaycanda kredit kartlarına maraq zəifləyib. Ekspertlər hesab edirlər ki, bu, maliyyə savadlılığının təkamülünün nəticəsidir. İnsanlar artıq borcla yaşamağa üstünlük vermirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda ödəniş kartlarının sayı artsa da, kredit kartlarına maraq zəifləyib. Mərkəzi Bankın açıqladığı statistik göstəricilərə görə, vətəndaşlar borclanmaqdan daha çox, mövcud vəsaitlərini xərcləməyə üstünlük verib. Belə ki, hazırda ölkədəki 22,4 milyon ədəd ödəniş kartının 20,3 milyonu debet, 2,1 milyonu kredit kartıdır. Son bir ildə debet kartların sayı 12% artıb, kredit kartlarının sayı isə 9% azalıb.

Maraqlıdır, insanlar kredit kartlarından niyə imtina edirlər?

### "KREDİT KARTLARININ AZALMASININ SƏBƏBİ LİMİTLƏRİN TƏTBİQİDİR"

Bank eksperti Emin Kərimov deyir ki, kredit kartlarının azalmasının səbəbi limitlərin tətbiqidir: "Plastik kartlara açılan kredit xətlərində Mərkəzi Bank tərəfindən müəyyən limitlər tətbiq olunub. Əvvəllər daha yüksək məbləğlərdə kredit xətti açılırdısa, indi risklərin azaldılması məqsədilə bu göstərici əməkhaqqının 4-5 misli səviyyəsinə endirilib. Kredit kartlarının mənfi tərəfi odur ki, digər adi kreditlərdə vəsait konkret qrafik üzrə ödənilsə də, kredit kartlarında bərpa olunan mexanizm mövcuddur. Yəni, şəxs vəsaiti istifadə edir, ödəniş etdikcə limit yenilənir və yenidən istifadə imkanı yaranır. Bu proses bir müddət davam etdiyindən, kredit tam bağlanma mərhələsinə çatdıqda vətəndaşlar müəyyən çətinliklərlə üzləşə bilirlər. Məhz bu səbəbdən risklərin azaldılması üçün requlyativ xarakterli addımlar atılıb. Onlardan biri də kredit məbləğlərinin nisbətən azaldılmasıdır".

### "DEBET KARTLAR DAHA GENİŞ İMKANLARA MALİKDİR"

Bank eksperti deyir ki, debet kartların artmasının səbəbi ölkədə elektron ticarətin genişlənməsi, ümumilikdə biznes əməliyyatlarının rəqəmsal müstəviyə keçməsi və bankların nağdsız ödənişlərə daha çox üstünlük verməsidir: "Bu tendensiya qlobal miqyasda da müşahidə olunur və nağdsız ödənişlərin inkişafı kartlara tələbatı artırır. Eyni zamanda, bir şəxsin bir neçə kartdan istifadəsini məhdudlaşdıran ciddi tənzimləmələrin olmaması da debet kartların sayının artmasına təsir göstərir. Kredit kartlarından fərqli olaraq, debet kartlar daha geniş istifadə imkanlarına malikdir və yaş məhdudiyyəti baxımından da daha əlçatandır. Belə ki, 18 yaşdan yuxarı şəxslərlə yanaşı, valideynlər övladları üçün öz adlarına açılmış debet kartlardan istifadə imkanı yaradırlar. Bundan əlavə, ictimai nəqliyyatda və gündəlik ödənişlərdə plastik kartlardan istifadənin artması da bu tələbi gücləndirir. Nəticədə debet kartların dövriyyəsi və istifadəsi daha çox praktik zərurətdən irəli gələn bir tendensiyaya çevrilir".

## "KREDİT KARTINDAN QAÇIŞ" VƏ "DEBET KARTA AXIN"

Kredit mütəxəssisi İsmayıl Məmmədov hesab edir ki, "kredit kartından qaçış" və "debet karta axın" ölkəmizdə maliyyə savadlılığının təkamül mərhələsidir: "Azərbaycan istehlakçısı artıq "borc iqtisadiyyatı" (kreditlə yaşamaq) paradiqmasından çıxaraq, "vəsaitlərin ağıllı idarəedilməsi" (yığım, rəqəmsal ödəniş, keşbek) modelinə keçid edir. Bu, həm vətəndaşın şəxsi büdcəsi, həm də ölkə iqtisadiyyatının dayanıqlığı üçün müsbət, sağlamlaşdırıcı bir siqnaldır. Statistik mənzərə sadəcə rəqəmlərin yerdəyişməsi deyil, Azərbaycan cəmiyyətində baş verən fundamental maliyyə-davranış qaydalarının dəyişdiyinin göstəricisidir. İnsan beyni qazandığı 10 manatın sevincindən təxminən 2 dəfə çox, itirdiyi 10 manatın ağrısını hiss edir. Kredit kartı üzrə effektiv illik faiz dərəcəsinin 25-28% səviyyəsində olması, istehlakçı tərəfindən şüuraltı olaraq "maliyyə itkisi" kimi kodlaşdırılır. Əvvəllər kredit kartı limiti "öz pulu" kimi qəbul edilirdi, artan maliyyə savadlılığı sayəsində bu "maliyyə itkisi" kimi kodlaşdırılır. Banklar isə bu psixoloji baryeri daha da gücləndirir".



Emin Kərimov

### "KREDİT KARTI ƏN YÜKSƏK RİSKLİ, TƏMİNATSIZ MƏHSULDUR"

Mütəxəssis bildirir ki, Mərkəzi Bank "məsuliyyətli borclanma" standartlarını sərtləşdirib: "Aylıq borc ödənişi rəsmi gəlirinin 45%-ni keçən şəxsə kredit kartı verilmir. Kredit kartı ən yüksək riskli, təminatsız məhsuldur. Beynəlxalq təcrübədə kart borcları ilk partlayan seqment olub. Azərbaycan bankları bu ssenaridən dərs çıxararaq, riskli seqmentdə kredit təkliflərini azaldırlar. Banklar üçün hazırda kredit kartı faizi qədər, debet kartı əməliyyatlarından əldə edilən gəlirlər dəyərlidir. Bu yanaşma sabit, proqnozlaşdırıla bilən gəlir axını təmin edir. Debet kartlara axının arxasında bankların yaratdığı güclü rəqəmsal həvəsləndirmə ekosistemi dayanır. Hazırda debet kartları sadəcə plastik kart deyil, "cashback", "mil", "qalıq faizi", "taksit" kimi funksiyaları özündə birləşdirən maliyyə mərkəzinə çevrilib".

### "DEBET KARTLARA OLAN 12%-LİK ARTIMIN ARXASINDA RİYAZİ REALLIQ DAYANIR"

İsmayıl Məmmədovun sözlərinə görə, banklar debet kartlarını kredit kartlarından daha cəlbedici edir: "Məqsəd müştərini faiz gəliri ilə yox, nağdsız dövriyyənin həcmi ilə qazanclı etməkdir. Bu, həm müştəri, həm bank, həm də iqtisadiyyat üçün qazan-qazan modelidir. Banklar müştərilərinə borc götürməkdənsə, yığım və qənaət alətlərinə köklənməyə təşviq edir. Bu, həm müştəri rifahı, həm də bankın portfel keyfiyyəti üçün strateji seçimdir".

Mütəxəssis prosesi 1500 AZN gəliri olan gənc üzərindən belə analiz edir: "Məsələn, 2000 AZN dəyərində noutbuk alışında kredit kartı ilə 12 aylıq ödəniş zamanı illik 26 faiz dərəcəsi nəzərə alındıqda, vətəndaş ümumilikdə təxminən 2280 AZN geri ödəyir və nəticədə 280 AZN əlavə xərc yaranır. Debet kart modelində isə vəziyyət fərqlidir. Şəxs vəsaiti əvvəlcədən debet kart hesabında topladıqda, qalıq məbləğə görə bankdan illik gəlir əldə edir, alış zamanı isə tərəfdaş şəbəkələr üzrə keşbek qazanır. Eyni 2000 AZN-lik alış zamanı beş faiz keşbek hesabına 100 AZN geri dönüş əldə olunur, kredit faizindən yayınmaqla birlikdə ümumi maliyyə üstünlüyü təxminən 380 AZN təşkil edir. Debet kartlara olan 12%-lik artımın arxasında məhz bu soyuq, riyazi reallıq dayanır".



İsmayıl Məmmədov




# TURİZMDƏ DÖNÜŞ NÖQTƏSİ

Turizmdə Təl-Əvivə və Dubaya uçuşların bərpası sevinclə qarşılanıb. Turizimçilər hesab edirlər ki, uçuşların bərpası həm ölkəyə gələn turistlərin sayını, həm də ölkədən çıxış imkanlarını artıracaq.


TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Yaxın Şərq regionunda İranla ABŞ və İsrail arasında baş verən hərbi gərginlik turizm axınına da ciddi təsir göstərdi. Hərbi əməliyyatlar ümumilikdə regionun turizm imicinə mənfi təsir etdi. Təhlükəsizlik narahatlıqları, nəqliyyat məhdudiyyətləri və beynəlxalq mediada formalaşan mənfi imic turistlərin səyahət qərarlarına təsir edərək, regiona olan marağın azalmasına səbəb oldu. Səyahət planları quran insanların səfərləri təxirə düşdü - ya ləğv olundu, ya da ertələndi.

Ancaq artıq döyüş əməliyyatları dayanıb və ölkələr öz hava məkanlarını açmağa başlayıblar. "Azərbaycan Hava Yolları" QSC (AZAL) də Təl-Əvivə və Dubaya uçuşları bərpa edir. Turizmçilər bu istiqamətlərə uçuşların bərpasının ölkə turizmində də canlanmaya səbəb olacağı qənaətindədirlər.

### "SÜNİ QİYMƏT TƏZYİQİ ARADAN QALXACAQ"

Turizmçi Azər Hüseynov hesab edir ki, AZAL-ın Təl Əviv və Dubay istiqamətlərinə uçuşları bərpa etməsi ölkə turizminə müsbət təsir göstərəcək:


Azər Hüseynov

"Yaxın Şərq ölkələri və İsrail Azərbaycan üçün turistlərin prioritet gəlmə bazarları sırasındadır. Son illərin statistikasına əsasən, bu regiondan ölkəmizə gələn turistlərin sayı ümumi turizmdə əhəmiyyətli paya malikdir. Xüsusilə İsrail bazarı yüksək xərcləmə qabiliyyəti ilə seçilir. Uçuşların bərpası ilk növbədə bu bazarlardan gələn turist axınının yenidən artmasına səbəb olacaq. Dubay da tranzit mərkəz və premium turizm bazarı kimi Azərbaycan üçün strateji əhəmiyyət daşıyır. Digər tərəfdən, müharibə dövründə mövcud vəziyyətdən istifadə edən bəzi hava yolları alternativ istiqamətlər üzrə aviabiletlərdə süni qiymət artımına getmişdi. Bu isə ölkəmizin turizm bazarında mövqeyini zəiflədərək turist axınının minimum səviyyəyə enməsi ilə nəticələnmişdi". Turizmçi hesab edir ki, uçuşların bərpası ilə bu süni qiymət təzyiqi aradan qalxacaq, bazarda daha real və balanslı qiymət siyasəti formalaşacaq: "Nəticədə həm digər istiqamətlərdə qiymətlər nisbətən stabilləşəcək, həm də turist axınında yenidən artım müşahidə ediləcək".

### HƏM GƏLİŞ, HƏM DƏ GEDİŞ ARTACAQ

Turizmçi Sürayyə Axundova Asiya istiqamətinə əksər uçuşların Dubaydan həyata keçirildiyi üçün uçuşların bərpasını əhəmiyyətli hesab edir: "Bakı-Dubay-Bakı marşrutu bərpa olunur və yenidən Dubaya turpaket satışı bazara çıxarılır. Eyni zamanda, Dubaydan digər Asiya ölkələrinə gediş-gəliş daha rahatlaşır". Turizmçinin fikrincə, Bakı-Dubay-Bakı reysinin bərpası ilə Birləşmiş Ərəb Əmirliklərinin, o cümlədən digər körfəz ölkələrinin turistlərinin Bakıya yenidən gəlişi gözlənilir: "Xatırladım ki, Dubaya məxsus hava şirkəti də Bakıya uçuşlarının sayını artıraraq 3-ə çatdırıb. Bu, həm gəliş, həm də gediş turizminin irəliləməsinə səbəb olacaq".



### "TURİSTLƏRİN GƏLİŞİ KƏSKİN AZALMIŞDI"

Turizmçi Əfsun Əhmədov da İrandakı müharibənin Azərbaycan turizminə ciddi zərbə vurduğunu bildirir: "Regionda baş verən müharibə səbəbindən Azərbaycanın turizm bazarına çox ciddi zərbə dəydi – turist sayında kəskin azalma yarandı. Quru sərhədlərimiz bağlı olduğu üçün ölkəyə daxil olmaq yalnız hava yolları ilə mümkündür. Dubay hava limanı endirilən zərbələrə görə fəaliyyətini müvəqqəti dayandırmışdı. Bu səbəbdən turistlərin gəlişi kəskin azalmışdı. Hesab edirəm ki, uçuşlar bərpa olandan sonra Azərbaycana gələn turist sayında 2-3 dəfə artım olacaq. Çünki səyahəti öncədən planlaşdıran çoxlu insan var".

### "HƏM TURİST, HƏM DƏ TURİZM VƏZİYYƏTİN DÜZƏLMƏSİNİ İSTƏYİR"

Turizmçi Vüsalə Sultan-Əhmədi hesab edir ki, hazırda Dubaya səfərlərin əsil vaxtıdır: "Fikrimcə, Bakı-Dubay-Bakı reyslərini tezliklə əvvəlki vəziyyətinə qaytaracağıq. Digər tərəfdən, Asiya ölkələrinə uçuşların əksəriyyəti Dubay vasitəsi ilə olduğu üçün onlar da dayanmışdı". Turizmçi Dubaya və Təl-Əvivə uçuşların bərpasının ölkəmizdə də turizmin canlanmasına səbəb olacağına şübhə etmir: "Əlcəzair, Mərakeş kimi ölkələrdəki insanların Azərbaycana gəlmək istəyi var. Sadəcə, İrandakı müharibə səbəbindən bir az qorxu yaranmışdı. Çünki turistlər riskli bölgələrdən uzaq durmağa çalışırlar. Bizim İranla qonşu ölkə olmağımız istər-istəməz turizmə təsir edib. Amma hazırda həm turist, həm də turizm vəziyyətin düzəlməsini istəyir".


Əfsun Əhmədov

## "SÜLHÜN OLMASI TURİZMİN İNKİŞAFINA BİRBAŞA TÖHFƏ VERİR"


Əziz Şiriyev

Turizm eksperti Əziz Şiriyevin sözlərinə görə, dünyada sülhün olması turizmin inkişafına birbaşa töhfə verir: "Çünki turizm xəyali məhsuldur və problem yarananda ona birbaşa təsiri olur. Ona görə də may ayından uçuşların bərpası həm ölkəmizə gələn turistlərin sayına müsbət təsirini göstərəcək, həm də istirahətə gedən vətəndaşlarımıza yol açacaq". Turizmçi hesab edir ki, aşağı büdcəli aviaşirkətlərinin ölkə bazarına daxil olması turizmin inkişafına təkan verəcək: "Artıq Serbiyadan ölkəmizə birbaşa uçuşlar başlayır. Həmçinin Bakı-İslamabad-Bakı və İslamabad-Bakı-İslamabad reysləri açılır. Bu reyslərin açılmasının ölkəmizə gələnlərin sayına müsbət təsir göstərəcəyinə ümid edirik".



# “ƏVVƏLLƏR DAHA ÇOX BURUN ƏMƏLİYYATLARI TRENDDƏ İDİ”

Adil Cümşüdov: “İkinci Qarabağ müharibəsində yaralanmış döyüşçülər üzərində apardığım rekonstruktiv əməliyyatlar mənim üçün xüsusi əhəmiyyət daşıyır. Bu əməliyyatların bir çoxu Azərbaycan tarixində ilk dəfə həyata keçirilirdi və bu işdə iştirak etmək mənim üçün böyük qürur mənbəyidir”.



Estetik cərrahiyyə son illərdə həm dünyada, həm də Azərbaycanda sürətlə inkişaf edən və cəmiyyətin diqqət mərkəzində olan sahələrdən biridir. Bu sahədəki yeniliklər, risklər haqqında Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Plastik cərrahiyyə şöbəsinin müdiri, universitetin Ümumi cərrahiyyə kafedrasının assistenti, tanınmış plastik-rekonstruktiv-estetik cərrah Adil Cümşüdovla söhbətləşdik.




### “HƏR BİR PASİYENTƏ FƏRDİ YANAŞMA TƏLƏB OLUNUR”

**● Sizcə, estetik cərrahiyyənin uğurlu olması üçün vacib şərt nədir?**

● Estetik əməliyyatın uğurlu olması üçün ilk növbədə xəstə ilə həkim arasında əvvəlcədən qurulan düzgün dialoq vacibdir. Həkim xəstənin nə istədiyini dəqiq bilməli və bu məsələdə seçici olmalıdır. Çünki hər bir pasiyentə fərdi yanaşma tələb olunur. Eyni əməliyyat bir pasiyentdə uğurlu nəticə verə bilər, digərində isə yox. Əgər xəstə müxtəlif texnikaları bilən təcrübəli cərraha müraciət edərsə, üzünə uyğun və estetik baxımdan qəşəng nəticə əldə edə bilər.

**● Azərbaycanda plastik cərrahlara ən çox hansı prosedur üçün müraciət edilir?**

● Əvvəllər Azərbaycanda daha çox burun əməliyyatları trenddə idi. Hazırda isə bədən əməliyyatları - xüsusilə bədən şəkilləndirmə və liposaksiya daha çox üstünlük qazanmağa başlayıb. Ümumiyyətlə, Qafqaz tipli bədən quruluşu və “Qafqaz burnu” adlanan burun formasından narazılıq daha çox müşahidə olunur.

### “HƏR İKİ ƏMƏLİYYAT BİRLİKDƏ İCRA OLUNUR”

**● İndi əvvəlki illərlə müqayisədə kişilər də estetik cərrahiyyəyə çox üz tuturlar...**

● Bəli. Xaricdə işlədiyim dövrlərdə müraciət edənlərin təxminən 30%-i kişilər, 70%-i qadınlar idi. Azərbaycanda isə 8 il əvvəl bu göstərici 10%-ə 90% idisə, hazırda bizdə də 30%-ə 70% səviyyəsinə yüksəlib. Kişilər arasında ən çox burun əməliyyatlarına müraciət olunur. Çəpər əyriliyi əməliyyatı zamanı pasiyentlər eyni zamanda estetik düzəliş də istəyirlər. Yəni, nəfəsalma çətinliyi ilə yanaşı, burun formasında problem varsa, hər iki əməliyyat birlikdə icra olunur. Bundan başqa, daha sərt kişi siması yaratmaq üçün çənə çıxıntısının formalaşdırılması, eləcə də düşmüş göz qapaqları və qaşların yaratdığı görmə problemləri ilə bağlı müraciətlər də çoxdur. Kişilərdə ginekomastiya (sinədə piylənmə) və qarın nahiyəsində piy yığılması da kompleks yaradan əsas səbəblərdəndir.

> “Qafqaz tipli bədən quruluşu və “Qafqaz burnu” adlanan burun formasından narazılıq daha çox müşahidə olunur.”

**● Estetik əməliyyatların riskləri nədən ibarətdir?**

● İstər estetik, istərsə də digər cərrahi əməliyyatlarda müəyyən risklər hər zaman mövcuddur. Estetik əməliyyatlarda risklərin daha çox soruşulmasının səbəbi onların həyati vacib olmamasıdır. Ürək əməliyyatı zamanı pasiyent ağır vəziyyətdə olur və bu, həyati zərurət daşıyır, buna görə risklər ikinci plana keçir. Məsələn, liposaksiya düzgün icra olunduqda risk faizi çox aşağıdır. Lakin həddindən artıq böyük həcmdə – məsələn, 10-15 litr yağın eyni anda götürülməsi və pasiyentin hərəkətsiz qalması tromb riskini artıra bilər. Bu risklərin qarşısını almaq üçün müasir avadanlıqlardan istifadə olunur və qabaqlayıcı tədbirlər görülür ki, nəticədə risk minimum səviyyəyə endirilir.



**Fotolar:** Rüfət Mikayılov / Global Photostock

## “Rəsmi siyahı mövcuddur”

**● Sosial şəbəkələrdə qeyri-peşəkar həkimlərin reklamı da geniş yayılıb. Pasiyentlər həkim seçərkən nələrə diqqət etməlidirlər?**

● Səhiyyə Nazirliyinin Təftiş Komissiyası tərəfindən tərtib olunmuş rəsmi siyahı mövcuddur və bu siyahı nazirliyin rəsmi saytında yerləşdirilib. Həmin siyahıda olmayan cərrahların estetik əməliyyat aparmaq hüququ yoxdur. Estetik əməliyyat həyata keçirən həkim mütləq rekonstruktiv bacarıqlara sahib olmalıdır. Ümumiyyətlə, “sadəcə estetik cərrah” anlayışı doğru deyil - bu ixtisas plastik, rekonstruktiv və estetik cərrahiyyəni əhatə edir. Məsələn, zədələnmiş çənəyə estetik görünüş vermək üçün onun anatomiyasını və rekonstruksiya üsullarını bilmək vacibdir. Çənə ayaq sümüyündən, burun isə qabırğadan formalaşdırılır. Təəssüf ki, bəzi qeyri-rəsmi kurslar keçmiş şəxslər də bu sahədə fəaliyyət göstərir və bu, ağır nəticələrə səbəb olur. Bu cür hallar digər pasiyentlərdə də qorxu yaradır, lakin çox vaxt səbəbin qeyri-peşəkar seçim olduğu bilinmir.

**● Estetik əməliyyat istəyi daha çox psixoloji amillərlə bağlıdır?**

● Bunu sadə bir misalla izah edə bilərik: əgər geyindiyimiz paltar bizə uyğun gəlmirsə, özümüzü narahat hiss edirik. Amma uyğun olduqda insan özünü daha rahat və inamlı hiss edir. Burun əməliyyatında əsas məqsəd əvvəlcə sağlamlıqdır, yəni nəfəsalma problemi aradan qaldırılmalıdır. Bundan sonra estetik görünüş ön plana çıxır. Əgər insan həm rahat nəfəs alır, həm də görünüşündən razıdırsa, bu, uğurlu nəticə deməkdir. Psixoloji baxımdan isə bəzi fiziki xüsusiyyətlər - burunun əyriliyi və ya böyüklüyü, qulaqların forması və s. insanlarda kompleks yarada bilər. Bu da sosial həyatda, hətta şəkil çəkdirərkən belə narahatlıq yaradır. Əməliyyatdan sonra isə insanlar özlərini daha rahat hiss edirlər.

**● Əməliyyatdan qorxanlar üçün alternativ üsullar varmı?**

● Kosmetoloji prosedurlar vasitəsilə kiçik dəyişikliklər etmək mümkündür, lakin bunlar cərrahi əməliyyatı tam əvəz etmir.

**● Sizi çox təsirləndirən əməliyyat hekayəsi varmı?**

● İkinci Qarabağ müharibəsində yaralanmış döyüşçülər üzərində apardığım rekonstruktiv əməliyyatlar mənim üçün xüsusi əhəmiyyət daşıyır. Bu əməliyyatların bir çoxu Azərbaycan tarixində ilk dəfə həyata keçirilirdi və bu işdə iştirak etmək mənim üçün böyük qürur idi. Məsələn, bir əsgərin çənəsi partlayış nəticəsində tam zədələnmişdi və biz onun çənəsini ayaq sümüyündən yenidən formalaşdırmışdıq. Bu kimi xatirələr çoxdur və hər biri mənim üçün unudulmazdır.

# SULAR ÜZƏRİNDƏ QURULAN MÖCÜZƏ

Venesiyanın əsas cazibəsi şəhərin sözün əsl mənasında suyun üzərində üzməsidir. Tarixinə dərindən nəzər saldıqda, şəhərin heyrətamiz və unikal olduğu qənaətinə gəlirsən.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Venesiya İtaliyanın hər il dünyanın müxtəlif yerlərindən milyonlarla turisti cəlb edən unikal bir şəhərdir. "Dənizlər kraliçası" haqqında hətta orada heç vaxt olmayanların belə saysız-hesabsız rəsm əsərlərindən, yazıçı və şairlərin təsvirlərindən, filmlərdən yaranan təsəvvürü var. Qədim memarlıq, daş döşənmiş küçələr, mənzərəli adalar labirinti və məşhur kanallar insanları heyran etməkdədir. 15 əsrdir ki, şəhər qeyri-mümkünlüyün təcəssümü olaraq insanları heyrətləndirir. Qərb və Şərqin qarışığı, suda sonsuz əkslər - dünyanın heç bir şəhərində buna bənzər gözəllik yoxdur.

Venesiyanın əsas cazibəsi bütün şəhərin sözün əsl mənasında suyun üzərində üzməsidir. Tarixinə dərindən nəzər saldıqda, şəhərin heyrətamiz və unikal olduğu qənaətinə gəlirsən. Venesiyanın memarlığı XIV-XVI əsrlərin əvvəllərində formalaşıb. Tarixin fərqli dönəmlərində yaşadığı müharibələr də izsiz ötüşməyib.

### HƏR İL YEDDİ MİLYON TURİST

Venesiya bir-birindən 150 kanalla ayrılan 118 adada salınıb. Adalar arasında 400-ə qədər körpü var. İnsanlar burada inanılmaz dərəcədə çətin şəraitdə dünyaca məşhur tarixi şah əsər yarada biliblər. Bu şəhərdə hər bir turist özünü orta əsrlərə qayıtmış kimi hiss edir. Venesiya təkcə qabarma-çəkilmələrə tab gətirmir, həm də hər gün minlərlə turisti qarşılayıb yola salır. Hər il bu şəhərə yeddi milyon turist gəlir.

Şəhərin görməli yerləri turistlərə Venesiya atmosferini yaşamağa və onun tarixi haqqında məlumat əldə etməyə imkan verir.

### KÖRPÜDƏN KEÇƏN YEDDİ MİN İNSAN

Santa Lusiya qatar stansiyasından çıxan kimi Böyük Kanalla (Grand Canal) üz-üzə qalır və şəhərin sehrini duymağa başlayırsan. Bu ərazi şəhərin ürəyi sayılır. XVIII əsrdən bu günə qədər Böyük Kanalın sahilləri demək olar ki, toxunulmamış qalıb. Burada hələ də muzeylərə və sərgi salonlarına çevrilmiş böyük köhnə binalar var. Bu binaların əsas girişləri qapıdan yox, sudandır. Böyük Kanal üzərindəki Rialto körpüsü Venesiyada ən çox fotoşəkil çəkilən yerlərdən biridir. Onu memar Antonio de Ponte layihələndirib, soyadı təsadüfən italyan dilində "körpü" deməkdir. Körpünün tikintisi 1591-ci ildə başa çatıb. İzdihama qoşulub hər gün körpünün üzərindən keçən yeddi min insandan biri olmağın sevincini yaşayırsan. Yay aylarında bu izdiham daha da böyüyür. Körpünün ətrafında fəaliyyət göstərən ictimai su avtobusları - vaperottalar bütün əsas kanallar boyunca 20-dən çox marşrutda fəaliyyət göstərir. Vaporettolar yalnız Venesiyanın tarixi hissəsinə xidmət etmir, həm də onu laqundakı bir çox ada ilə birləşdirir. Gəmilərdə pik saatlarda avtobus və ya metrodakı kimi izdiham ola bilər. Biletlər tək səfərlər üçün satılır (ən sərfəli qiymət: 7.50 avro) və günlük biletlər 20 avroyadır. Su taksiləri isə daha sürətli olması ilə bərabər, xeyli bahadır - 25 avro. Venesiyaya yaxından bələd olmaq üçün insan axınına qoşulub kanallar üzərindəki körpülərlə irəliləməlisən. Körpülərdən keçdikcə "Venesiya necə tikilib?" sualı isə hamını düşündürür.

Bütün Venesiya taxta dirəklər üzərində qurulub - şəhərdə bir milyondan çox belə dirək var. Məşhur Rialto Körpüsü üçün 30 mindən çox dirək istifadə olunub. Bu körpü əvvəllər tamamilə ağacdan olub, lakin dəfələrlə yanıb, bundan sonra venesiyalılar onu daşdan tikiblər. Maraqlıdır ki, Venesiyada tikinti heç vaxt başa çatmır. Bir çox inşaatçı oradakı binaları daim yeniləyir.

Şəhərdə aralarındakı məsafə cəmi bir metr olan binalar var. Pəncərələr bir-birinə çox yaxın olduğundan, mənzillərdən az qala əl sıxmaq ənənəsinin olduğu da deyilir.

Təbii ki, Venesiyaya gələn turistlər kanallarda üzən qayıqlara minirlər. Yarım saatlıq gəzinti üçün adambaşına 20 avro ödəmək lazım gəlir. Venesiyada rəsmi olaraq 485 qondolier - peşəkar qayıqçı var. Hər kəsin qondolier olması demək olar ki, mümkün deyil, peşə yalnız miras yolu ilə ötürülür.











### "SU KƏNARINDAKI QIZIL GÖYƏRÇİN YUVASI"

Venesiyaya səfər etmək üçün ən yaxşı vaxt mart-noyabr ayları hesab olunur. Hər bir turist Axmatovanın dediyi kimi "su kənarındakı qızıl göyərçin yuvası" olan Müqəddəs Mark Bazilikasının əzəmətinə tamaşa etməyə, açıq havadakı kafelərdə kofe içməyə tələsir. Ən möhtəşəm şəkillər göyərçinlərlə əhatə olunan zaman çəkilir. Yerli qaydalara görə, göyərçinləri və qağayıları yemləmək qadağandır. Bu, 500 avroya qədər cərimə ilə nəticələnə bilər. Müqəddəs Marko meydanında Konstantinopoldan xilas edilmiş heykəllər, freskalar və mozaikalarla bəzədilmiş San Marko Katedralı, Venesiya memarlıq zərifliyinin zirvəsi olan Doge Sarayı və böyük Qalileyin ilk teleskopunu quraşdırdığı şəhərin ən hündür tikilisi olan müstəqil Kampanil zəng qülləsi turistləri heyran edir. Katedral XI əsrdə inşa edilib. Görünüşü Konstantinopoldakı Həvarilər Kilsəsinə (indiki İstanbulun Fatih Məscidinin yeri) bənzəyir. Meydanda ifa olunan canlı musiqilər insanları ovsunlayır. Vaxtilə Bayronun, Hemenqueyin qəhvə içdiyi bu kafelərin füsunkar ab-havası turistləri ayaq saxlamağa məcbur edir. Maraqlıdır ki, müxtəlif dövrlərdə rus mədəniyyətinin bir çox xadimi burada müvəqqəti yaşayıb və tez-tez geri qayıdıblar: Çexov, Çaykovski, Axmatova, Blok, Yesenin, Vyazemski... Hər il bu şəhərdə fevral ayında keçirilən karnaval dünya turistlərini, Venesiya Film Festivalı isə sentyabr ayında dünya kino ulduzlarını bir araya toplayır.

### VENESİYANI ZİYARƏT EDİN, YOXSA...

Bu üzən şəhər həm özünəməxsusluğu ilə fəxr edir, həm də bundan əziyyət çəkir. Hər il Venesiya 4-5 millimetr batır. Su təkcə XX əsrdə qurudan 20 santimetr geri çəkilib. Ən pessimist elmi proqnozlara görə, Venesiya XXII əsrin əvvəllərinə qədər batacaq. (Su qurudan geri çəkilirsə, heç nə bata bilməz, əks proses gedir) Onu xilas etmək üçün Musa (MOSE) daşqınlardan mühafizə sistemi qurulub. Onun tikintisi 30 ildən çox çəkib. Bu, şlüz qapıları şəbəkəsidir: yüksək qabarma zamanı 78 manea qalxır və dənizdən gələn böyük suyun qarşısını alır. Lakin sistemin sınaqları hələ də davam edir, ona görə də onun gələcək dağıdıcı daşqınlardan etibarlı qorunma təmin edəcəyinə dair heç bir zəmanət yoxdur. Bu baxımdan, dünya turistləri arasında belə bir deyim var: hər kəs Venesiyanı ziyarət etməlidir, çünki onun nə vaxt tamamilə su altında qalacağını heç kəs bilmir!

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
16 MAY ŞƏNBƏ 2026
www.kaspi.az



“Real Madrid” müxtəlif eqo mərkəzlərinin toqquşduğu arenaya çevrilib. Problem yalnız nəticələr və sırf taktiki məsələlər deyil. Komandanın daxilindəki atmosfer, futbolçular arasındakı münasibətlər korlanıb, idarəetmə modeli çöküb.

# YÜKSƏK AMPLİTUDALI YIRĞALANMA

“Real Madrid” haqqında illər boyu formalaşan bir fikir var ki, bu klub nə qədər çətin vəziyyətə düşsə də, daxildəki nizam-intizam və qalib mentaliteti onu yenidən zirvəyə qaytarır. Lakin son iki mövsümdə yaşananlar göstərir ki, “kral klubu”nun böyük çatlara səbəb olan yüksək amplitudalı yırğalanma yaşanır. Komandanın daxilindəki atmosfer, futbolçular arasındakı münasibətlər korlanıb, idarəetmə modeli çöküb. “Real Madrid” belə demək olarsa, müxtəlif eqo mərkəzlərinin toqquşduğu arenaya çevrilib.

**TİTULSUZ İKİ İL**

Madrid təmsilçisi ardıcıl ikinci mövsümü titulsuz başa vurmağa hazırlaşır. Özü də təkcə Avropada yox, elə İspaniyanın özündə də. “Barselona” La Liqanın son turunda “El-Klasiko”dakı qələbə ilə çempionluğu vaxtından əvvəl təmin etdi, əzəli rəqibin gözləri qarşısında tarixi qələbənin dadını çıxardı. Əvəzində, Madrid tərəfi daxili qalmaqallarla gündəmdədir. Mövsümün əvvəlində Xabi Alonso ilə başlayan yeni layihə azarkeşlərdə ümid yaratmışdı. Lakin problemin məşqçidə olmadığı və çarənin məşqçi dəyişməklə tapılmayacağının aydınlaşması üçün elə də çox vaxta ehtiyac olmadı. “Santiaqo Bernabeu” stadionunun paltardəyişmə otağında tamamilə başqa bir güc - futbolçu eqoları formalaşıb və məşqçilər bunun öhdəsindən gəlməyi bacarmırlar. Xabi Alonso gedir, Alvaro Arbeloa gəlir, amma nəticə dəyişmir. Klub rəhbərliyi illərdir futbolçulara verdiyi limitsiz səlahiyyətlərin əvəzini ağır şəkildə qaytarır.

**PALTARDƏYİŞMƏ OTAĞINA ATILAN “ATOM BOMBASI”**

Bir çox futbol ekspertinə görə, böhranın başlanğıc nöqtəsi Kilian Mbappe transferidir. Şübhəsiz ki, fransız hücumçu dünyanın ən istedadlı futbolçularından biridir. Amma futbol tarixində belə transferlərin kollektiv daxilində balansı dağıda bildiyinə dair çoxlu nümunə var. Düzdür, Mbappenin gəlişindən əvvəl də komandada ulduzlar az deyildi, lakin kollektiv daha harmonik görünürdü. Karlo Ançelotti paltardəyişmə otağını idarə edə bilir, futbolçular arasındakı balansı qoruyurdu. Lakin Mbappenin komandaya qoşulması ilə çox şey dəyişdi.

Yayılan xəbərlərdə klub daxilində iki əsas düşərgənin formalaşdığı iddia olunur. Futbolçuların bir qismi Mbappe, digər hissəsi Vinisius Juniorun tərəfində “yaraqlanıblar”. İlk vaxtlar bu, nəticələrə bir o qədər təsir etməsə də, hazırda bu qarşıdurma meydanda aşkar hiss olunur.

**BİR-BİRİNİ XƏSTƏXANALIQ EDƏN FUTBOLÇULAR**

Madrid düşərgəsində baş verən son hadisələri qəzetlər idman səhifəsində deyil, kriminal xəbərlərin arasında versələr, heç də “barıtını çox etmiş” olmazlar. Məşqlərdə yaşanan davalar və məşqçilərə qarşı getdikcə artan hörmətsizlik halları komandanın nə qədər nəzarətdən çıxdığının əsas göstəricisidir.

Antonio Rüdigerin məşqdə komanda yoldaşına sillə vurduğu iddiası, futbolçuların köməkçi məşqçilərə, hətta Arbeloanın özünə saymazyana münasibəti, nəhayət, Orelyan Çuameni ilə Federiko Valverde arasındakı dava böhranın pik nöqtəsidir. Uruqvaylı oyunçunun başından xəsarət alaraq xəstəxanaya aparılması barədə yayılan məlumatlar futbol ictimaiyyətində şok effekti yaratdı.

**FLORENTİNO PERESİN ÇƏTİN İMTAHANI**

Madrid klubunun prezidenti Florentino Peres futbol dünyasının ən güclü rəhbərlərindən biri hesab olunur. Onun dövründə paytaxt təmsilçisi həm maliyyə, həm də idman baxımından böyük imperiyaya çevrildi. “Qalaktikos” layihələri, fantastik məbləğlərə dünya ulduzlarının transferi və qazanılan kuboklar Peresi klub tarixinin ən böyük prezidentlərindən biri adlandırmaq üçün kifayətdir.



Kilian Mbappe

Lakin tarix göstərir ki, imperiyalar bəzən məhz öz yaratdıqları güclərin qurbanına çevrilirlər. Peres də futbolçulara çox böyük təsir gücü verib. İndi isə həmin oyunçular məşqçiləri ciddi qəbul etmirlər. Məşqçilərin tez-tez dəyişməsi vəziyyəti daha da ağırlaşdırır. Oyunçular anlayırlar ki, son qərarı verən məşqçilər deyil, rəhbərlikdir. Belə şəraitdə çalışdırıcının avtoritet olması az qala mümkünsüzdür.

## Çarə Mourinyodur?

Bu xaosun fonunda ən çox müzakirə olunan ad Joze Mourinyodur. Portuqaliyalı mütəxəssis uzun illər əvvəl “Real Madrid”də işləyərkən sərt xarakteri, nizam-intizamı və idarəçiliyi ilə diqqət çəkmişdi. Düzdür, əksəriyyət fikirləşir ki, o, əvvəlki taktiki gücündə deyil. Son illərdə Mourinyo işlədiyi klublarda gözlənilən uğurları qazana bilməyib. Amma mütəxəssisin hələ də dəyişməyən bir xüsusiyyəti var: o, paltardəyişmə otağına nəzarət etməyi bacarır. Məhz buna görə Florentino Peres eqolu oyunçuları ram edə biləcək “diktatoru” Madridə qaytarmaq istəyir.

İddialara görə, Mourinyo kluba qayıtmaq üçün geniş səlahiyyət tələb edir. O, heyətə müdaxilə edilməməsini, tibbi heyətin dəyişdirilməsini və bəzi futbolçuların göndərilməsini istəyir. Mütəxəssis açıq-aydın tam nəzarət iddiasındadır və bu, artıq indidən futbolçulara verilən gözdağı hesab olunur.



Joze Mourinyo

“Real Madrid” tarix boyu çoxlu böhranlardan çıxmağı bacarıb. Bu dəfə problem nəticələrdən çox klubun strukturunda görünür. Peres bu yay ciddi qərarlar verməlidir. Klub daxilində intizamın bərpa olunması zərurətə çevrilib. Əks halda, “Santyaqo Bernabeu”nun divarları yaxın illərdə daha böyük böhranların şahidi ola bilər.